

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Dost və düşməni tanıdan Vətən Müharibəsi



12

SƏS

№ 203 (6886)

4 noyabr 2023-cü il.
Qiyməti 60 qəpik

# "Türk əsri" yeni hədəflərə yön alır



2

**PREZİDENT İLHAM ƏLİYEV:**
"Biz böyük Türk dünyasının bir hissəsiyik. Əminəm ki, dostluğumuz, qardaşlığımız əbədi olacaq"

# Qalibi olmayan MÜHARİBƏ



5

## Dövlət Statistika Komitəsi tərəfindən keçirilən statistik olimpiadanın qaliblərinin mükafatlandırma mərasimi olub



4

## 2024-cü ilin dövlət büdcəsi nə vəd edir?



15

## GEYİMLƏRİMİZ: assimilyasiyanın zirvəsində



13

## Şəhidləri ilə qürur duyan Vətən



10

## Övladlığagötürmə hansı hallarda zəruridir?



14

# “Türk əsri” yeni hədəflərə yön alır

## PREZİDENT İLHAM ƏLİYEV: "Biz böyük Türk dünyasının bir hissəsiyik. Əminəm ki, dostluğumuz, qardaşlığımız əbədi olacaq"



Türk dövlətlərini bir-birinə əsrlər boyu mövcud olan tarixi, etnik və dini bağlar bağlayır. Dünyada 200 milyona yaxın türk mənşəli insan yaşayır. Dünya sivilizasiyasına böyük töhfələr vermiş, çoxlu dövlətlər, imperiyalar yaratmış Türk xalqları bəşəriyyətə dahi alimlər, mütəfəkkirlər də bəxş edib. Dünyada gedən qloballaşma fonunda Türk xalqlarının öz mədəniyyətini qoruması və etnik köklərini unutmaması çox vacibdir. Türk dünyası ölkələrinin güclənməsi, nüfuzunun artması Türk dövlətlərinin bir təşkilat altında birləşməsini labüd edirdi. Məhz bu səbəbdən Türk ölkələrinin dövlət başçılarının 2009-cu ildə Naxçıvanda keçirilmiş Zirvə görüşündə Türkdilli dövlətlər xalqları arasındakı tarixi bağlara, ümumi dil, mədəniyyət və ənənələrə əsaslanaraq, hərtərəfli əməkdaşlığın dərinləşməsinə səy göstərərək, siyasi çoxqütblülük, iqtisadi və informasiya qlobalizasiyası proseslərinin inkişafı şəraitində regionda sülhün möhkəmləndirilməsi, təhlükəsizlik və sabitliyin təmin edilməsinə birgə töhfə verilməsini arzulayaraq, ümumi qurum çərçivəsində qarşılıqlı əlaqənin dövlətlər və onların xalqları arasında xoş qonşuluq, vahidləşmə və əməkdaşlıq üçün geniş potensialdan faydalanmağa şərait yaratdığını hesab edərək, ”Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişi”ni imzalanıb.

Nəzərə çatdıraq ki, Türk Dövlətləri Təşkilatı yarandıqdan sonra Zirvə görüşləri keçirilib və bu da əlaqələrin daha sıx olmasına imkan verir.Azərbaycanın, Türkiyənin, Qazaxıstanın, Qırğızıstanın və Özbəkistanın üzv, Macarıstanın, Türkmənistanın və Şimali Kipr Türk Respublikasının müşahidəçi kimi təmsil olunduqları Türk Dövlətləri Təşkilatının noyabrın 2-də ”Türk əsri!” şüarı altında keçirilən 10-cu Zirvə görüşdə türk dövlətlərinin ümumi maraqlarını ifadə edəcək mühüm məsələlr müzakirə olunub. Zirvə görüşündə türk dövlətləri arasında iqtisadiyyat, ticarət, nəqliyyat və gömrük sahələrində əməkdaşlıq məsələləri müzakirə olunaraq və birgə layihələr təsdiq edilib. Dövlətlər arasında çoxtərəfli əməkdaşlığın əsas istiqamətləri nəzərdən keçirilib. Dünyada və regionda baş verən siyasi və iqtisadi hadisələr fonunda türk birliyi üçün gərəkli məsələlərlə bağlı fikir mübadiləsi aparılıb, bir sıra müvafiq qətnamələrlə yanaşı, Astana Aktı qəbul olunaraq, Astana Sammiti Bəyannaməsi imzalanıb. Zirvə görüşünün sonunda TDT-yə sədrlik Özbəkistandan Qazaxıstana keçib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu görüşdə iştirak edərək çıxış edib. Həmçinin səfər çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olub. Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq, qardaşlıq və müttəfiqlik əlaqələrinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Bu ilin sentyabrında həyata keçirilən antiterror tədbirlərinin uğurla başa çatması məmnunluqla vurğulandı.









Rəcəb Tayyib Ərdoğan dövlətimizin başçısını Xankəndi və Xocalı şəhərlərində Azərbaycan Bayrağını ucaltması münasibətilə təbrik etdi. Söhbət zamanı Türk Dövlətləri Təşkilatının ”Türk Əsri” çağırışı altında 10-cu yubiley Zirvə görüşünün ölkələrimiz və xalqlarımız arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi işinə xidmət etdiyi qeyd olundu.

Görüşdə ikitərəfli münasibətlərimizin bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik bildirildi, əməkdaşlığımızın perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

### ”TÜRK ƏSRİ!” YUBİLEY - 10-CU ZİRVƏ GÖRÜŞÜ

Qazaxıstanın paytaxtı Astana şəhərində noyabrın 2-də Türk Dövlətləri Təşkilatının ”Türk əsri!” şüarı altında keçirilən 10-cu Zirvə görüşü üzv dövlətlər arasında sıx əməkdaşlıq əlaqələrini və inteqrasiyanı daha da gücləndirməyi hədəfləməklə, bu ölkələrə aid ən vacib məsələlərin müzakirəsi üçün mühüm platforma rolunu oynayır. Zirvə görüşündə çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İlham Əliyev deyib ki, son iki ildə Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi dövlətlərə 20 səfər həyata keçirib.”Türk dövlətləri ilə münasibətlərin möhkəmləndirilməsi Azərbaycan xarici siyasətinin əsas prioritetlərindən biridir”,-deyən dövlətimizin başçısı çıxışında onu da vurğulayıb ki, etnik və mədəni köklərimizin, dilimizin, ortaq keçmişimizin münasibətlərimizin təməlini təşkil edir: ”2009-cu ildə Naxçıvan Zirvə görüşündən ötən müddət ərzində müxtəlif sahələrdə əməkdaşlığımız təsisatlanıb, Türk Dövlətləri Təşkilatı uğurlu inkişaf yolu keçib. Bu gün təşkilatımız beynəlxalq səviyyədə böyük siyasi çəkiyə və nüfuza malikdir”.Azərbaycan Prezidenti Şuşa şəhərinin 2023-cü il üçün ”Türk dünyasının mədəniyyət paytaxtı” elan edilməsinə verilən dəstəyə görə minnətdarlığını bildirib.

### AZƏRBAYCAN TÜRK DÖVLƏTLƏRİNİN İQTİSADİYYATINA 20 MİLYARD ABŞ DOLLARINDAN ÇOX SƏRMAYƏ QOYUB

Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının ”Türk Əsri” çağırışı altında noyabrın 3-də Astanada keçirilən 10-cu yubiley Zirvə görüşündə çıxışında deyib ki, Azərbaycan Türk dövlətlərinin iqtisadiyyatına 20 milyard ABŞ dollarından çox sərmayə qoyub: ”Bunun əsas hissəsi Türkiyəyə qoyulan sərmayədir”.Ölkələrimiz arasında birgə sərmayə fondlarının yaradılması prosesinin başlandığını vurğulayan dövlətimizin başçısı bildirib ki, Azərbaycan-Özbəkistan İnvestisiya Fondu və Azərbaycan-Qırğızıstan İnkişaf Fondu təsis olunub. ”2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 2023-cü ilin yanvar-sentyabr aylarında Azərbaycanın türk dövlətləri ilə ticarət dövriyyəsi 40 faiz artıb”, - deyə Prezident İlham Əliyev vurğulayıb.Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə martın 16-da Ankarada Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşü zamanı Özbəkistan İnvestisiya Fondu və Azərbaycan-Qırğızıstan İnkişaf Fondu təsis olunub.

### TÜRK DÖVLƏTLƏRİ İLƏ MÜNASİBƏTLƏRİN MÖHKƏMLƏNDİRİLMƏSİ AZƏRBAYCAN XARİCİ SİYASƏTİNİN ƏSAS PRİORİTETLƏRİNDƏN BİRİDİR

Bu gün ölkəmizin günü-gündən dünya dövlətləri arasında prestijinin artması ilə bir çox ölkələr,o cümlədən, Mərkəzi Asiya dövlətləri Azərbaycanla münasibətlərə isti yanaşır.Azərbaycan ilə Mərkəzi Asiya ölkələri arasında əlaqələrdə açılan yeni üfüqlər gələcək üçün yaxşı perspektivlər vəd edib. Son bir il ərzində Azərbaycan Prezidenti İlham Əliyevin Mərkəzi Asiya ölkələrinə ardıcıl səfərləri xüsusilə diqqət çəkir. Bu əlaqələrin inkişaf etməsi isə təkcə Azərbaycan və Mərkəzi Asiya ölkələri üçün deyil, həm də bütün türk dünyası üçün mühüm əhəmiyyət kəsb edir. Prezident İlham Əliyev həm ölkə daxilində, həm də ölkə xaricində balanslaşdırılmış siyasət yürüdür. Məhz buna görə də son illərə nəzər yetirsək görərik ki, Azərbaycanın beynəlxalq arenada dostluq etdiyi ölkələrin sayı durmadan artır.

*Ardı Səh. 3*

# “Türk əsri” yeni hədəflərə yön alır

## PREZİDENT İLHAM ƏLİYEV: "Biz böyük Türk dünyasının bir hissəsiyik. Əminəm ki, dostluğumuz, qardaşlığımız əbədi olacaq"

Əvvəli Səh. 2

Ölkəmizin tərəfdaşlarının artması isə dövlətimiz adına yalnız uğur gətirə bilər. Məhz Prezident İlham Əliyevin yürütdüyü uğurlu xarici siyasət nəticəsində Azərbaycan özünə xeyli dost və qardaş ölkə qazana bilib. Son dövrlər Prezident İlham Əliyevin Mərkəzi Asiya, o cümlədən regionun türkdilli ölkələrinə mütəmadi səfərləri və eləcə də həmin dövlətlərin başçılarının Azərbaycana səfərləri Türk dünyası üzvləri ilə əlaqələrimizin genişlənməsini, dərinləşməsini və strateji xarakter almasını şərtləndirir. Qarşılıqlı səfərlər zamanı imzalanan sənədlər ölkələrimiz arasında münasibətlərin gələcək perspektivlərini müəyyənləşdirir.

Azərbaycan Prezidenti İlham Əliyev Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında noyabrın 3-də Astanada keçirilən 10-cu yubiley Zirvə görüşündə çıxışında deyib ki, Türk dövlətləri ilə münasibətlərin möhkəmləndirilməsi Azərbaycan xarici siyasətinin əsas prioritetlərindən biridir.Etnik və mədəni köklərimizin, dilimizin, ortaq keçmişimizin münasibətlərimizin təməlini təşkil etdiyini vurğulayan dövlətimizin başçısı bildirib: "2009-cu ildə Naxçıvan Zirvə görüşündən ötən müddət ərzində müxtəlif sahələrdə əməkdaşlığımız təsisatlanıb, Türk Dövlətləri Təşkilatı uğurlu inkişaf yolu keçib. Bu gün təşkilatımız beynəlxalq səviyyədə böyük siyasi çəkiyə və nüfuza malikdir".Son iki il ərzində Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi dövlətlərə 20 səfər həyata keçirdiyini vurğulayan dövlətimizin başçısı qardaş dövlətlərin rəhbərlərinin də həmin dövrdə Azərbaycana çoxsaylı səfərlər etdiklərini vurğulayıb.





### "AZƏRBAYCAN ETİBARLI TRANZİT ÖLKƏ KİMİ ÖZÜNÜ TƏSDİQLƏYİB"

Azərbaycan Prezidenti İlham Əliyev Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında noyabrın 3-də Astanada keçirilən 10-cu yubiley Zirvə görüşündə çıxışında vurğulayıb ki, münasibətlərimizin inkişafı kontekstində nəqliyyat və logistika sahələri mühüm yer tutur. Azərbaycan Mərkəzi Asiya ölkələri ilə Türkiyə və Avropa bazarları arasında etibarlı tranzit ölkə kimi özünü təsdiqləyib: "Azərbaycan Şərq-Qərb Nəqliyyat Dəhlizinin dayanıqlı fəaliyyətinə öz dəyərli töhfəsini verir".Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə həyata keçirilən islahatlar nəticəsində Azərbaycan Şərqlə Qərb arasında mühüm qovşağa çevrilib. Azərbaycanın təşəbbüskarı və birbaşa iştirakçısı olduğu regional və qlobal enerji və nəqliyyat layihələrinin həyata keçirilməsi enerji və yük daşımaları sahəsində səmərəliliyi artırmaqla yanaşı, bütövlükdə regionun inkişafına müsbət töhfə verməkdədir.Regionun əsas nəqliyyat və logistika mərkəzlərindən biri kimi Azərbaycan ərazisindən keçən Şərq-Qərb nəqliyyat dəhlizi Avropa və Asiya qitəsini birləşdirən ən qısa nəqliyyat marşrutudur. Aprelin 20-də ölkəmizə səfər edən Qırğızıstan Respublikasının Prezidenti Sadır Japarovun Azərbaycana rəsmi səfəri çərçivəsində imzalanmış sənədlər sırasında Strateji Tərəfdaşlıq haqqında Bəyannamə və Dövlətlərarası Şuranın yaradılması haqqında Memorandum bu baxımdan xüsusi əhəmiyyətə malikdirlər. Bu o deməkdir ki, strateji tərəfdaşlıq qarşılıqlı fəaliyyətin yüksək səviyyəsidir və ölkələri məhz strateji xarakterli əməkdaşlığa kökləyir. Bundan əlavə, nəqliyyat infrastrukturunun və Şərq-Qərb nəqliyyat dəhlizinin daha səmərəli fəaliyyət göstərməsi üçün səylər birləşdirilməlidir. Azərbaycanda yüklərin bütün istiqamətlərə - həm Şimala, həm Cənuba, həm də Qərbə göndərilməsinə imkan verən müasir nəqliyyat infrastrukturu yaradılıb. Azərbaycanın liman infrastrukturunun imkanları Qırğızıstan üçün açıqdır. Azərbaycanın apardığı regional ticarət siyasətinin başlıca xüsusiyyəti regionda ölkənin tranzit mövqeyinin möhkəmləndirilməsi və geoiqtisadi mövqeyinin daha da gücləndirilməsindən ibarətdir. Bu da öz növbəsində dəniz və dəmir yolu nəqliyyatı üçün uzunmüddətli etibarlı bazarın formalaşması, ticarət əlaqələrinin genişlənməsi, yük daşımaları ilə əlaqəli infrastruktur sahələrin daha da inkişafına fayda qatacaqdır. Nəqliyyat dəhlizlərinin potensialından səmərəli istifadə, həmçinin gələcəkdə bu sahənin qeyri-neft sektorunda xüsusi çəkisinin artmasına da öz təsirini göstərəcəkdir.

Çox sevindirici haldır ki, Azərbaycan öz torpaqlarını işğaldan azad etdikdən sonra qısa bir zamanda Şərq-Qərb dəhlizinə müsbət töhfəsini verməkdə davam edir.Sonda onu da qeyd etmək yerinə düşər ki, Vətən müharibəsindəki Qələbədən sonra Zəngəzur nəqliyyat dəhlizi layihəsi də aktuallaşmış oldu. Zəngəzur nəqliyyat dəhlizi Azərbaycan ərazisindən keçməklə Asiya ilə Avropanı birləşdirən Şərq-Qərb dəhlizinin bir hissəsinə çevriləcək.Türkiyə bu dəhlizdən istifadə edərək əsas iqtisadi tərəfdaşlarından biri olan Azərbaycana birbaşa quru yolu reallaşdıracaq. Şübhəsiz ki, bu da, öz növbəsində, ikitərəfli iqtisadi və turizm əlaqələrinin daha sürətli inkişafına şərait yaradacaq. Digər tərəfdən, Zəngəzur dəhlizi həm də Türkiyə üçün Orta Asiyaya bir ticarət qapısı rolunu oynayacaq və bu ölkənin türk dünyası ilə iqtisadi əlaqələrini gücləndirməsinə imkan verəcək.Bir sözlə, Azərbaycanın artan tranzit imkanları, həmçinin Mərkəzi Asiya ölkələrinin, həmin coğrafiyada yerləşən türk dövlətlərinin inkişafına da müsbət təsirini göstərəcək.

### TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATINA ÜZV ÖLKƏLƏR ARASINDA TƏHLÜKƏSİZLİK, MÜDAFİƏ, MÜDAFİƏ SƏNAYESİ KİMİ SAHƏLƏRDƏ ƏMƏKDAŞLIQ DAHA DA ARTMALIDIR

Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında noyabrın 3-də Astanada keçirilən 10-cu yubiley Zirvə görüşündə çıxışında bildirib ki, bu gün dünyanın müxtəlif bölgələrində beynəlxalq hüquq normaları kobudcasına pozulur: "Əfsuslar olsun ki, bu gün dünyanın müxtəlif bölgələrində beynəlxalq hüquq normaları kobudcasına pozulur".Münaribələrin, qanlı münaqişələrin alovlandığını qeyd edən Prezident İlham Əliyev bildirib: "Belə olan halda, ilk növbədə, ölkələrin müdafiə potensialı təhlükəsizliyin əsas zəmanətinə çevrilir. Hesab edirəm ki, üzv ölkələr arasında təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə əməkdaşlıq daha da artmalıdır".

"Üç il əvvəl Vətən müharibəsi başa çatdıqdan dərhal sonra Azərbaycan işğaldan azad olunmuş ərazilərində genişmiqyaslı bərpa-quruculuq işlərinə başladı. Bu məqsədlə artıq Azərbaycan büdcəsindən 7 milyard ABŞ dolları həcmində vəsait sərf edilib. Növbəti il ən azı 2,4 milyard ABŞ dollarının ayrılacağı nəzərdə tutulur".Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında noyabrın 3-də Astanada keçirilən 10-cu yubiley Zirvə görüşündə çıxışında deyib.Böyük Qayıdış Proqramının icra olunduğunu vurğulayan dövlətimizin başçısı qeyd edib: "Artıq keçmiş məcburi köçkünlər - bu torpaqların əsl sahibləri Laçın və Füzuli şəhərlərinə və üç kəndə qayıdıb. 2026-cı ilin sonunadək Qarabağa və Şərqi Zəngəzura 140 mindən artıq insanın geri dönməsi nəzərdə tutulur".Azərbaycan Prezidenti Füzuli şəhərində inşası başa çatmış məktəbə görə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevə və inşa edilən yaradıcılıq mərkəzinə görə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevə təşəkkürünü bildirərək deyib: "Bunlar Azərbaycan və Özbəkistan, Azərbaycan və Qazaxıstan xalqları arasında olan dostluğun və qardaşlığın təzahürüdür".Bu gün real mənzərə onu deməyə əsas verir ki, türk birliyi qlobal gücə çevrilib və Zirvə görüşü türkdilli dövlətlərin mövcud sıx əlaqələrinin və əməkdaşlığının daha da gücləndirilməsinə müsbət təsirini göstərəcəkdir.Bir sözlə, Azərbaycanın Mərkəzi Asiya ölkələri, o cümlədən Qırğızıstanla əməkdaşlığın geniş perspektivləri var və gələcək illərdə mövcud potensialdan tam istifadə üçün daha böyük addımlar atılacaq. Bu gün real mənzərə onu deməyə əsas verir ki, türk birliyi qlobal gücə çevrilib və Zirvə görüşü türkdilli dövlətlərin mövcud sıx əlaqələrinin və əməkdaşlığının daha da gücləndirilməsinə müsbət təsirini göstərəcəkdir. Dövlət başçımızın söylədiyi kimi: "Biz böyük Türk dünyasının bir hissəsiyik. Əminəm ki, dostluğumuz, qardaşlığımız əbədi olacaq. Türk Dövlətləri Təşkilatının beynəlxalq nüfuzu daha da artacaq".

**RƏFİQƏ KAMALQIZI**

# Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər




“Heydər Əliyev İli” ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

2023-cü il noyabrın 3-də YAP Sabirabad rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub.



Əvvəlcə Ulu Öndərin abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb.

Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib. Gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar.

Heydər Əliyev Mərkəzində Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən sənədli film nümayiş etdirilib.

Sonra keçirilən dəyirmi masada Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərindən bəhs edilib, YAP sıralarına yeni qoşulmuş gənclərə partiyaya üzvlük vəsiqələri təqdim edilib. Sonda xatirə fotosu çəkdirilib.

# Dövlət Statistika Komitəsi tərəfindən keçirilən statistik olimpiadanın qaliblərinin mükafatlandırma mərasimi olub

**Noyabrın 3-də "Heydər Əliyev İli" çərçivəsində Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən yuxarı sinif şagirdləri və ali məktəb tələbələri arasında təşkil olunmuş statistik olimpiadanın final mərhələsi və qaliblərin mükafatlandırılması mərasimi keçirilib.**





Tədbirdə çıxış edən Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov, Elm və təhsil naziri









Emin Əmrullayev olimpiadada iştirak edən şagird və tələbələri təbrik edib, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin keşməkeşli həyat yolundan və xalqımız qarşısındakı misilsiz xidmətlərindən danışıb, müstəqilliyimizin məhz onun sayəsində əbədi və dönməz



xarakter aldığını vurğulayıblar.

Qeyd olunub ki, olimpiadanın keçirilməsində əsas məqsəd yuxarı sinif şagirdlərinin və ali məktəb tələbələrinin statistikaya marağını artırmaq, statistik biliklərə malik istedadlı şagird və tələbələri aşkar etmək, onları həvəsləndirmək və intellektual inkişaflarına təkan vermək, statistik kadr hazırlığı potensialını gücləndirmək, statistik savadlılığı dərinləşdirmək, cəmiyyətdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin həyat və fəaliyyətinə, onun milli statistika sisteminin beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi və dünya statistika sisteminə inteqrasiyası, ümumilikdə statistika sisteminin inkişafına verdiyi töhfələrə dair məlumatlılığın daha da artırılması olmuşdur. Vurğulanıb ki, olimpiada şagird və tələbələrin təhsil dövründə qazandıqları statistik bilik və bacarıqlarını nümayiş etdirmələri üçün yeni platforma rolunu oynayıb, eyni zamanda onlar statistika elmi, habelə ölkənin sosial-iqtisadi həyatında baş verən hadisə və proseslər haqqında daha geniş rəsmi statistik məlumatlar əldə etmək imkanı qazanıblar.

Statistik olimpiadanın yekunlarına dair hesabat məruzəsi ilə çıxış edən Dövlət Statistika Komitəsi sədrinin müavini, təşkilat komitəsinin sədri Yusif Yusifov qeyd edib ki, statistik olimpiada Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar onun əziz xatirəsinə ehtiram əlaməti olaraq həyata keçirilən tədbirlər çərçivəsində, Dövlət Statistika Komitəsi kollegiyasının



14 dekabr 2022-ci il tarixli, 8/1 nömrəli qərarı ilə təsdiq edilmiş təqvim planına uyğun təşkil olunmuş, olimpiadanın şəffaf, obyektiv və peşəkar səviyyədə təşkili və keçirilməsini, bununla bağlı ölkə üzrə fəaliyyətlərin əlaqələndirilməsini təmin etmək məqsədilə Dövlət Statistika Komitəsində təşkilat komitəsi yaradılıb. Olimpiada təşkilat komitəsi tərəfindən təsdiq edilmiş qaydalara və tədbirlər planına uyğun keçirilib, bu məqsədlə test tapşırıqları və nəticələrin real vaxt rejimində əldə edilməsi üçün elektron informasiya sistemi hazırlanıb.

Olimpiadada ümumilikdə 3106 nəfər şagird, 203 nəfər tələbə iştirak etmişdir. Şagirdlər arasında keçirilmiş olimpiadanın nəticələrinə görə İsmayıllı rayonu Diyallı kənd Aqil Məmmədov adına tam orta məktəbin 11-ci sinif şagirdi Göyüşov Namaz Veyis oğlu 1-ci, Masallı rayonu Musaküçə kənd Fayəddin Xancanov adına tam orta



məktəbin 11-ci sinif şagirdi Kazımzadə Mircəlal Mirkazım oğlu 2-ci, Lənkəran rayonu Hirkan qəsəbə Ağaxan Quliyev adına tam orta məktəbin 10-cu sinif şagirdi - Baxşiyev Cavidan Cavid oğlu 3-cü, tələbələrdən isə Azərbaycan Dövlət İqtisad universitetinin 2-ci kurs magistrantı Topçubaşova Yaqut Əziz qızı 1-ci, Bakı Mühəndislik Universitetinin 4-cü kurs tələbəsi İslamov İsrafil Rasim oğlu 2-ci, Azərbaycan Memarlıq və İnşaat Universitetinin 3-cü kurs tələbəsi - Mirzəyeva Nigar Oqtay qızı isə 3-cü yeri tutmuşdur. Tədbirdə daha sonra statistik olimpiadanın final mərhələsinə keçmiş tələbə və şagirdlərə sertifikat və hədiyyələr, olimpiadanın qaliblərinə isə diplom və hədiyyələr təqdim olunmuşdur. Sonda xatirə şəkilləri çəkilmişdir.

# Saxta xəbərlər mediaya necə ayaq açır?

*Media eksperti məsələyə aydınlıq gətirdi*

**"Günümüzdə saxta xəbərlərin sayı kifayət qədər çoxdur. Dünyanın müxtəlif statistika təşkilatları qeyd edirlər ki, saxta xəbərin gündəlik xəbər dövriyyəsindəki payı təxminən 40-80 faiz arasında dəyişir". Bu sözləri SİA-ya açıqlamasında Jurnalistlərin Həmkarlar İttifaqının sədri (JuHİ), Mətbuat Şurası İdarə Heyətinin üzvü Müşfiq Ələsgərli deyib.**



O bildirib ki, saxta xəbərlərin istehsal olunmasının müxtəlif səbəbləri var: "Tarixdə hər zaman saxta xəbərlər olub. Amma bu gün çoxalmasının əsas səbəblərindən biri saxta xəbərlərin yayılmasına imkan verən texnologiyanın inkişaf etməsidir. Digər tərəfdən saxta xəbərin xüsusi bir tipi dezinformasiyalar da çoxalır. Dezinformasiya şüurlu şəkildə istehsal olunub, yayılan xəbərdir. Təəssüf ki, hazırda dezinformasiyaları siyasi mübarizə alətinə çevirən mərkəzlərin sayı çoxalıb.

Peşəkar KİV-in əsas işi ondan ibarətdir ki, yoxlanılmamış, dəqiq olmayan xəbəri verməsin və KİV özü buna qarşı mübarizə aparmalıdır. Təəssüf ki, bəzən sensasiya yaratmaq xatirinə ənənəvi KİV-lər də dezinformasiyaların təsiri altına düşürlər. Bu problemin qarşısını almaq üçün praktik olaraq birgə işləmək lazımdır".

***Səbinə Hüseynli***

# Qalibi olmayan MÜHARİBƏ



### İsrail-Fələstin münaqişəsi böyük dövlətlərin müdaxiləsi ilə heç vaxt bitməyəcək

Əvvəlcədən qeyd edək ki, indiki Yaxın Şərq münaqişəsinin mümkün qədər tez və hamı üçün faydalı bir dərslə başa çatmasını Uca Tanrıdan arzu edirik. Ölən uşaq, qadın, cavan qoca, hər kim olur olsun, günühsız insanların öldürülməsinə dözüm qalmayıb. Kənardan idarə olunan bu müharibələrin zərərçəkənləri mülki vətəndaşlar olmamalıdır...

Tərəflər arasında kin-küdurətin dərəcəsi terrordan təkcə cari döyüş tapşırıqlarını yerinə yetirmək üçün deyil, həm də siyasi məqsədlərə çatmaq üçün istifadə edilir. HƏMAS-ın vəhşilik anlayışına daxil olan hərəkətləri haqqında daha çox şey məlumdur. Amma fələstinlilərin də etiraz edəcəyi bir şey var. İsrailə inananlar fələstinlilərə qulaq asmırlar və əksinə.

Formal olaraq hər şey 1947-ci ildə başlayıb, əslində isə minlərlə il əvvəl. Bütün bibliya tarixini müharibələr və münaqişələrin salnaməsi kimi oxumaq olar. Həm israillilər, həm də fələstinlilər özlərini təkcə tarixi vətənlərinin ağası hesab etmirlər, həm də rəqiblərinin alçaqlığına arxayındırlar.

İsrail Dövlətinin yaranması ilində Fələstin sakinlərinin taleyini İkinci Dünya Müharibəsində üç əsas qalib olan SSRİ, Böyük Britaniya və ABŞ həll etdi. Hər bir tərəf öz məqsədlərini güdürdü və perspektivli müttəfiq hesab etdiyi tərəflərə arxalanırdı. Dünyanın o vaxta qədər bərqərar olmuş Qərb və Şərqə bölünməsi "dünyanın ağalarının" razılığa gələcəyinə və onların ittihamlarına tabe olacağına ümid yaratdı.



Birqütblü dünyaya keçid bu ümidi məhv etdi: Rusiya Yaxın Şərqdə keçmiş "sovet" təsirini böyük ölçüdə itirdi, Çin isə buna hələ çatmayıb. Bundan əlavə, o, digər insanların qaynar nöqtələrindən uzaq durmağa çalışır. Amma İslam dünyasının subyektivliyi nəzərəçarpacaq dərəcədə artıb. Bir vaxtlar məşhur olan Üsamə bin Laden 1980-ci illərdə Səudiyyənin "Osnova" fabrikində nəşr olunan dəftərlə (ərəbcə "Əl-Qaidə) ABŞ-dan Qüdsə, oradan isə Pakistana uçurdu. Bu dəftərdə "iyirmi beş min mücahid"in adı yazılmışdı. Onlar qonşu Əfqanıstanda Sovetlərlə döyüşmək üçün Pakistana gəlirdilər.

SSRİ Əfqanıstanı tərk etdikdən sonra həmin "iman uğrunda döyüşçülər", əsasən ərəblər bütün Yaxın Şərqə səpələndilər. Onlar nəinki anti-İsrail cihadını "mərkəzləşdirdilər", həm də qalib yürüşlə ruhlandırdılar. Təbii ki, bu gün Fələstin mühitində şounu idarə edən mücahidlər deyil, çünki onların sayı xeyli azalıb. İsraildə hər 10 milyon insana təxminən eyni sayda fələstinli düşür. Şərqi Qüds də daxil olmaqla İordan çayının qərb sahilinin əhalisi təqribən 3 milyon, Qəzza zolağının ən azı 2,5 milyonu, qalanları isə "yaxın və uzaq" ərazilərdə yaşayır. İordan çayının qərb sahili ilə Qəzza sakinləri arasında əhəmiyyətli fərq odur ki, hazırda İsrailin nəzarətində olan torpaqlardan didərgin düşmüş insanların ən azı 70%-i Qəzzada cəmləşib.

İsraildə hesab olunurdu ki, Qəzzada əhəmiyyətli araşdırmalar aparılsa gec-tez "qarşısı alınmaz ekstremistlər"i "mötədillər"lə ram etmək mümkündür. Belə ki, ikincilər birinciyə ibrət dərsi verə bilərlər. Yeri gəlmişkən, israillilər özləri də ondan əvvəl olan FƏTH-in əvəzinə HƏMAS-ın xeyrinə seçim ediblər və HƏMAS Qəzzada ciddi şəkildə demokratik prosedura uyğun olaraq hakimiyyətə gəlib.

Mötədil fələstinlilər, israillilərin inandığı kimi, uzun müddətdir ki, İsraildə yaxşı yaşayırlar və özləri üçün daha yaxşı həyat axtarmırlar. Bu arada, anti-İsrail cihadı ən azı 3 min mülki yəhudinin (1948, 1956, 1967 və 1973-cü illərdə 4 Yaxın Şərq müharibəsində öldürülən 16 mini nəzərə almasaq) həyatına başa gəldi. Fələstinlilərin sayının ən azı 90 min olduğu təxmin edilir. Bura oktyabrın 17-də Əl-Əhli xəstəxanasında ölən 800 fələstinli daxil deyil. Qəzza sakinləri özlərini məhbus kimi hiss edirlər. Xarici dünya ilə bütün əlaqələr İsrail vasitəsilədir. Baxmayaraq ki, onlar İsrailin "ianələrindən" imtina etmirlər. Kütlə isə Peyğəmbəri deyil, dövlətin üstünlüyünü tanıyan HƏMAS-ı dəstəkləyir.

### İtkilər minlərlədir

İsrail çox güman ki, Qəzza zolağının silah və yaraqlılardan təmizlənməsinə çalışacaq. Tutaq ki, o, uğur qazanır. Hələlik qiymətdən danışmağın mənası yoxdur. Artıq hər iki tərəfin itkiləri minlərlədir. Həm israillilər, həm də fələstinlilər ölənlərin əksəriyyətinin mülki şəxslər olduğunu deyir. İsrail Baş Qərargahının yerləşdiyi Təl-Əvivdə HƏMAS yaraqlılarının və onların "siyasi tərəfdaşlarının" sayının ən azı 15 min nəfər olduğu güman edilir. İsrailin sərəncamında isə ən azı 450 min hərbçi var. Lakin onların 300 mindən çoxu təqaüdçüdür və ehtiyatdadırlar, ən yaxşı halda ərazilərin müdafiəsi ilə məşğuldurlar. Beləliklə, təxminən 180 min hərbi qulluqçunun olduğunu deyə bilərik. Eyni zamanda, ehtiyatdakılar kifayət qədər motivasiyalıdır və fələstinlilərdən daha yaxşı silahlanıblar.

2 min Amerika dəniz piyadası şübhəsiz ki, onlara həm döyüş, həm də mənəvi dəstək verəcək.: ABŞ-da 4,5 milyona yaxın, Qərbi Avropada isə 25 milyondan çox müsəlmanı da diqqətdən kənarda deyil. Ümumiyyətlə, onlar praqmatik və apolitik ola bilərlər, lakin ruhlarında nələrin olduğunu Allah bilir. 2 milyardlıq İslam dünyası təbii ki, bir cəbhə təqdim etməyəcək. Ancaq yenə də "onların ruhunda" olanları bilmək o qədər də asan deyil. Üstəlik, 30 minlik Livan Hizbullah qrupu münaqişəyə girərək hadisələrin nəticəsinə ciddi təsir göstərə bilər.

Düzdür, İsraillə barışmayan Hizbullah şiələri ilə fələstinlilər hələ də "ailə dostu" olmaqdan daha çox "ticarət" edirlər. Fələstin tərəfdarı olan sünni əksəriyyətlə "zorakı şiələr" arasındakı münasibətlər təxminən katoliklər və pravoslav xristianlar arasındakı münasibətlərlə eynidir. Amma İsrail və İran arasındakı münaqişədə fələstinlilərin əksəriyyəti öz dindaşlarının tərəfindədir. Və belə demək mümkündürsə, HƏMAS-ın döyüşməkdən başqa çarəsi yoxdur. Eyni zamanda müsəlmanın şüurunda olan "müvəqqəti vətən" belə "ilkin" olur: məscidim haradadır, torpağım da oradadır...



Qəzzanın növbəti "demilitarizasiyası" möhlət gətirə bilər. İsrail diskotekalarının bombalanmasına cavab olaraq Fələstin məhəllələrinin dağıdılması və başqa bir 7 oktyabrın baş verməsini gerçəyə çevirə bilər. İsrailin hərəkətləri başqa heç nəyə gətirib çıxara bilməz. İsraillilər tədricən uyğunlaşmaya ümid edir, fələstinlilər aparteiddən danışır. Və soruşurlar: niyə biz tam hüquqlu suveren dövlət əldə etmək əvəzinə kiməsə uyğunlaşmalıyıq?

Baş verənlərin mahiyyətini artıq dünyanın pərdəarxası intriqalarına, Səudiyyə-İsrail dialoqunun qarşılıqlı faydalarına, Çinin "bir kəmər, bir yol"una xələl gətirməsinə, enerji qiymətlərinin dinamikasına kökləyir. Xüsusilə ABŞ-da seçkilər və ya Ukraynada xüsusi əməliyyat üçün. Bütün bunlar genişlənmiş xarici gündəmdə mövcuddur və hətta hadisələrin gedişatına təsir göstərə bilər.

RAKURS

Ardı Səh. 6

Əvvəli Səh. 5



# Qalibi olmayan MÜHARİBƏ

Ancaq detallar yalnız mahiyyəti tamamlayır, lakin onu əvəz etmir. Və formal olaraq hazırkı ehtirasların partlamasına səbəb olan Qüds Əl-Əqsa məscidinə giriş səbəbdən başqa bir şey deyil. Dünya mediası İsrailin tərəfində olsa belə "xeyir və şər qüvvələri" arasında sərhəd çəkmək daha yersizdir. Bu, yalnız israillilərin öz seçimlərinə və üstünlüklərinə inamını qoruyur. Bu hesabla bağlı hər hansı şübhə İsrail tərəfindən düşmənçiliklə qarşılanır. Ən yaxşı halda, o, bütün arqumentlərə əhəmiyyət vermədiyini açıq şəkildə bildirir. Bu, absurdluq həddinə çatır: İsrailin hərəkətlərini bəyənmirsinizsə, deməli, antisemit, terrorçu və hansısa ölkənin "agenti"siniz. Beləliklə, yəhudilərin ehtiyatlı və maarifli insanlar kimi reputasiyası həmişə təsdiqlənmir. Bu isə oktyabrın 7-si ərəfəsində İsrail xüsusi xidmət orqanlarının səhvləri ilə bağlı deyil.

Bu münaqişə sivilizasiyalı, yəni dəyər əsaslı hesab olunur. Amma bunun iqtisadi əsası da var. Hər bir israilli üçün milyonlarla dollar hər cür aktiv var. Bunların 75%-i xarici investisiyalardır. Məsələn, ABŞ İsrailə hər il 3 milyard dollar təmənnasız yardım edir. Fələstinlilərin hər biri təxminən min dəfə az aldı. Başqalarının sərvəti isə təkcə yaradıcı təqlid üçün səfərbər olmur. İki qeyd diqqətimizi çəkir. İsrailli: "Babalar üçün şeytanın üzü Auşvitsdir. Nəvələr üçün - Reim" (İsrail gənclər festivalının 280 iştirakçısının ölüm yeri). Ərəbcə isə: "Rusiya ədaləti öyrədir. Amma Rusiyadan Qüdsə yalnız yəhudilər gedir".



Bu arada dünya qlobal münaqişəyə yaxınlaşır. Əsas sual göz qabağındadır: bundan qaçmaq üçün eyni dərəcədə qlobal iradə varmı? İsrail dövlətinin beynəlxalq "tərəfdarları"nın edə bilmədiklərini sona çatdırmağın vaxtı deyilmi? Təkcə İsraildən deyil, Fələstinlilərdən də münaqişəyə son qoymağın faydaları barədə təminat almağın zamanıdır. Tərəfləri sülhməramlı səddlə ayırmaq və Qüdsü dünya dinlərarası paytaxtı elan etməkdən bağqa yol münaqişəni bir əsr də uzada bilər. Çünki bu şəhər müsəlmanlar, yəhudilər və xristianlar üçün simvolikdir.

Niyə islam dünyası öz dindaşlarının terrorçularına qarşı cihad elan etməkdən inadla imtina edirlər? Bəşəriyyətin gözündə böyüyən Çin və Hindistanı görmürlərmi, nə vaxt onlar öz sözünü deyəcəklər? Bu arada İsrail əminliklə inanır ki, bütün intriqalar Tehrandan və onun Livandakı şöbəsi Şeyx Nəsrullahdan gəlir. Əvvəllər isə hesab olunurdu ki, İsrailə qarşı mübarizə Əbu Nidaldan, Yasindən, Ərəfatdan, Haniyədən, Bərqutidən gəlir.

İkinci Dünya Müharibəsindən sonra İsraili hər hansı nalayiq işdə günahlandırmaq ənənəvi olaraq Hitlerin cəlladı Eyxmanın taleyinə işarə etməklə, antisemitizm kimi qəbul edilirdi. Sonrakı epizodlar da bu tezislə bağlıdır. İsrailin terrorçuları cəzalandırmaq əzmi - məsələn, qanlı Münhen Olimpiadasından sonra - taleyin qaçılmaz qılıncı kimi qəbul olunmağa başladı. Deyirlər ki, cinayətlərin əvəzi ödənilməlidir, hətta canları bahasına.

Siyasi səviyyədə heç kim birbaşa sual vermir: niyə terrorçulara qarşı müharibə yalnız terrorçuların sıralarını artırır? Ordaburda cəza verən tərəf guya antiterror məntiqinə uyğun hərəkət edir. İsrailin formal olaraq malik olmadığı nüvə silahının terrorla mübarizə vasitəsinə çevrilməyəcəyinə də zəmanət yoxdur. ABŞ, Fransa, Hindistan və hətta İran kimi...

## ABŞ fürsəti əldən vermir

ABŞ prezidenti Cozef Baydenin administrasiyası İsrailin baş naziri Benyamin Netanyahuya Qəzza zolağı ətrafında baş verənlər fonunda istefa perspektivi ilə bağlı eyham edib. İddialara görə, müvafiq siqnal Amerika liderinin Tel-Əvivə son səfəri zamanı gəlib. Üstəlik, Ağ Ev artıq Fələstinlə bağlı müzakirələrdə yəhudi dövlətinin digər siyasətçilərini də hədəfə almaq üçün səylər göstərir. Netanyahu hökumətinin Qəzzanın gələcək strukturunun necə görünməli olduğuna dair yanaşması da Amerika rəhbərliyini məyus edir.

Mənbələr Politico-ya bildiriblər ki, Bayden administrasiyası Netanyahunun karyerasını tez bir zamanda bitirməyə cəhd edir. Gözləntilərə görə, baş nazir vəzifəsində bir neçə ay, ən azı Qəzzada əməliyyatın ilkin mərhələsi başa çatana qədər davam etməyəcək. Bu mövzu təkcə ABŞ-da daxili müzakirələr çərçivəsində deyil, həm də Amerika prezidenti ilə İsrailin baş naziri arasında üzbəüz söhbət zamanı fəal şəkildə qaldırılıb. Beləliklə, Politico-nun həmsöhbətlərinə görə, Tel-Əvivə son təcili səfəri zamanı Ağ Evin rəhbəri Netanyahunu potensial varisi ilə bölüşə biləcəyi dərslər barədə düşünməyə dəvət edib.

ABŞ-da düşünürlər ki, Netanyahu siyasi gələcəyini müharibə ilə bağlamağa cəhd etməklə və hansısa mərhələdə siyasi kapital toplamaq üçün münaqişənin genişlənməsindən istifadə etməklə hakimiyyəti əldə saxlamağa ümid edir. Onun ofisinin günahı yerli təhlükəsizlik aparatının üzərinə yıxmaq cəhdləri artıq hansı taktikaların ola biləcəyini nümayiş etdirir. Onun etdiklərini İsrail cəmiyyəti ödəməli olacaq. Nəticədə məsuliyyət Baş Nazirin Aparatının üzərinə düşür. Netanyahu onsuz da Baydenin sevimlisi deyildi. ABŞ prezidenti pərdə arxasında dəfələrlə öz koalisiyasında antidemokratik meylləri tənqid edib.

Bu həftələr ərzində ABŞ prezidentinin köməkçiləri alternativ israilli siyasətçiləri Qəzza ilə bağlı müzakirələrə dəvət etməyə, hökumət başçısı postuna potensial iddiaçıların fikirlərini almağa çalışmağa başlayıblar. Belə ki, fövqəladə hallar kabinetinin naziri Benni Qantz, keçmiş baş nazir Naftali Bennet və parlament müxalifətinin lideri Yair Lapidlə müzakirələr aparılıb. İyun ayında bir sıra ərəb dövlətləri İsrail koalisiyasının sağçı dini qanadının hərəkətlərini və bu fonda İsraildə yaranan küçə etirazlarını müşahidə edərək, bu rəqəmlərdən bəziləri artıq alternativ diplomatiyanın siması kimi çıxış ediblər.

ABŞ Qəzzanın gələcək strukturuna da təzyiq göstərir. Ağ Ev hesab edir ki, müharibədən sonrakı dövrdə anklavda dominant mövqe Fələstin Muxtariyyətinin strukturları, yəni HƏMAS-a qarşı olan qüvvələr tərəfindən tutulmalıdır. Bu, İsrail hökumətinin sağçı dini qanadının vizyonuna ziddir, onun nümayəndələri Fələstin Muxtariyyətini zəifləmək üçün hər şeyi edirlər. Vaşinqtonla onun Yaxın Şərqdəki müttəfiqi arasındakı fikir ayrılığı, ilk növbədə, amerikalıların İordan çayının qərb sahilində status-kvonu saxlamaq fikrindən ehtiyatlı olduqları üçün yaranır. Orada yəhudi köçkünlər tərəfindən artan zorakılıq Yaxın Şərqdə yeni qeyri-sabitlik mənbəyinin açılması ilə hədələyir.

Senatın Təxsisatlar Komitəsi qarşısında çıxış edən dövlət katibi Antoni Blinken qeyd edib ki, Fələstin Muxtariyyəti Qəzza zolağında idarəetmə və son nəticədə təhlükəsizlik üçün məsuliyyəti öz üzərinə götürməsi "ən məntiqli olardı". Ayrı-ayrılıqda məlum olub ki, ABŞ və İsrail qurudan hücum əməliyyatından sonra anklavda müvəqqəti çoxmillətli sülhməramlı qüvvələrin yaradılması ilə bağlı danışıqlar aparır. "Beynəlxalq qüvvələrin mümkün tərkibi ilə bağlı danışıqlar gedir" deyən demokrat senator Kris Van Hollen müzakirələri "ilkin və kövrək" adlandırıb. "Düşünürəm ki, bundan sonra gələnlərə keçid üçün Qəzzada bir növ çoxmillətli qüvvələrin olması vacib olardı". Qərb nəşrləri hesab edir ki, sülhməramlılar sırasına ərəb hərbçilərinin də daxil edilməsindən söhbət gedə bilər. Belə ki, İsrailə səfər edən konqres heyəti Səudiyyə Ərəbistanının missiyanın tərkibində mövcudluğu perspektivini müzakirə edib.

İsrail humanitar vəziyyətlə bağlı ABŞ-dan heç də az təzyiq görmür. Dövlət Departamenti İsrailin "Haaretz" qəzetinin istinad etdiyi daxili məsləhət notlarında Bayden administrasiyasına fələstinli mülki əhalinin vəziyyətini yüngülləşdirmək üçün təcili addımlar atmaq üçün İsrailə diplomatik təzyiq göstərməyi tövsiyə edir. Beləliklə, diplomatik departament hesab edir ki, Benyamin Netanyahunun rəhbərlik etdiyi hökumətdən yeganə xəttdən əlavə, iki əlavə boru vasitəsilə Qəzzaya su təchizatını tam gücü ilə bərpa etməsi tələb oluna bilər. Bundan əlavə, Dövlət Departamenti hesab edir ki, anklavda su təchizatının işləməsi üçün yanacaqla təmin etmək lazımdır.

Hələlik isə Fələstində, daha dəqiq desək Qəzzada vəziyyət dəhşətlidir və bunun sonu görünmür...

***V.VƏLİYEV***

***P.S. Məqalədə xarici mənbələrə istinad var.***






# Fransanın qan qoxuyan "humanitar yardım"ları

## Xankəndidən Ermənistanı silahlandıran Parisə mesaj: Cənubi Qafqazdan əlinizi çəkin!

Fransanın Ermənistana silah verməsinin əsas səbəbi rəsmi Parisin Cənubi Qafqazı yenidən müharibə ocağına çevirməkdir. Ermənistanı Rusiyanın idarəçiliyindən, forpostluğundan "xilas etmək" yarışına girən Qərb dövlətləri arasında finişə daha tez çatmağa çalışan rəsmi Paris aktivliyini daha da artırır. ABŞ-dan sonra Fransanın da " mülki təhlükəsizliyin qorunması" bəhanəsi, təlim-məşq adı ilə hərbçilərini Ermənistana göndərməsinin başqa açıqlaması yoxdur. Anti-Rusiya siyasətlərini hər məqamda büruzə verən, hətta rəsmi İrəvanın Rusiyanın layihəsi olan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından (KTMT) çıxması üçün əllərindən gələni edən Qərb bütün vasitələrə əl atır. KTMT təlimlərindən nümayişkaranə imtina edən Ermənistan artıq seçimini edib. KTMT, MDB, Avrasiya İqtisadi İttifaqı (AİI) kimi təşkilatlarla əməkdaşlığı "soyudan" rəsmi İrəvan "şimal küləyi"ni Qərbdən əsən mehlə əvəzləyir. Bu qurumların da Rusiyanın himayəsi ilə qurulduğu hər kəsə bəllidir. Artıq Rusiya ilə Ermənistan arasındakı hərbi əməkdaşlığa son verilməsi gündəmdədir. Rusiyanın Ermənistanda illərdən bəri yerləşən, işğalçı ölkənin sərhədlərini qoruyan 102-ci bazasının çıxarılması kimi vasitələrdən istifadə olunur. Amma Ermənistanla Rusiyanın 50 il müddətinə imzaladıqları hərbi əməkdaşlıq barədəki sazişin pozulması nəticəsində yaranacaq mənzərəni fikirləşən yoxdur. Yüz illərlə əsarət altında saxladığı Afrika ölkələrindən biabırcasına qovulan Fransa Ermənistanda yerləşməkdə israrlıdır. Rəsmi Parisin Ermənistanı ən müasir silahlarla təchiz etməsi də bundan xəbər verir. Başqa sözlə deyilsə Fransa Prezidenti Emmanuel Makronun hədəfi Cənubi Qafqazda gərginliyi gücləndirməkdir. Fransada yaşayan erməni diasporunun idarə etdiyi Makronun göstərişi ilə Ermənistana səfər edən Fransanın xarici işlər naziri Ketrin Kolonna İrəvanda olarkən Hayastanla hərbi saziş imzalamağa hazır olduğunu bəyanatında səsləndirdiyi "İmzalanacaq sənəd İrəvana imkan verəcək ki, özünü müdafiə etmək üçün hərbi avadanlıq əldə etsin" sözləri ilə də təsdiqləmişdi. Fransanın "dəyişən strategiyası"ndan ən çox zərər çəkənin Ermənistan olacağı şübhəsizdir. Hindistanın Ermənistanla ötən il 250 milyon dollarlıq silah sazişi imzaladığını da nəzərə alsaq o zaman Ermənistanı el dili ilə deyilsə "barıt çəlləyi" adlandırmaq olar. Lakin Fransanın Afrikada apardığı siyasətini Cənubi Qafqazda həyata keçirmək imkanı məhduddur.

Məğlub Ermənistanı silahlandırıb növbəti müharibəyə sövq edən, xəyalpərəst daşnakları illərdən bəri formalaşdırmaq istədikləri "mif"lərini fransızsayağı gerçəkləşdirməyə şirnikləndirən Fransanın xarici işlər naziri Ketrin Kolonnanın sosial şəbəkəsində Ağrı dağının şəklini paylaşmasının əsasında da iyrənc niyyət dayanır. Ağrı dağını Ararat adlandıran ermənilərin mifoloji xəstəliklərini





oyatmağa xidmət edən bu kimi "təşəbbüslər"ə çoxdan son qoyulub.

İkinci Qarabağ müharibəsində, Azərbaycanın erməni separatizminə qarşı apardığı lokal antiterror tədbirləri zamanı məğlub olan erməni revanşistlərinə "ərazi iddiaları" ilə bağlı vəd verən, yeni müharibəyə ruhlandıran Fransa Afrikada həyata keçirdiyi 200 illik müstəmləkəçilik siyasətlərini Ermənistanda davam etdirmək istəyir. Ötən aylarda Laçın sərhəd-keçid məntəqəsindən Azərbaycanın Qarabağ iqtisadi rayonunun o vaxtlar erməni separatçı-xunta rejiminin nəzarətində olan hissəsinə "humanitar yardım" adı altında hərbi sursat aparmağa çalışan yük maşınlarının yan-yana düzülməsini qəzəblə, ürək ağrısı ilə izləyən Makronun Fransanın İrəvandakı səfirliyinə hərbi attaşe təyin etmək, Zəngəzurda (Sünikdə) konsulluq açmaq, hətta Ermənistanla hərbi əməkdaşlıqlarını gücləndirəcəyi ilə bağlı sərsəmləmələri daldan atılan daş məsələsinin fransızsayaq açıqlamasıdır. 30 ilə yaxın müxtəlif adlar, bəhanələrlə artıq tarixin arxivinə atılmış "Dağlıq Qarabağ respublikası"nın müstəqilliyi naminə ayı kimi min oyundan çıxan Fransanın hadisələrə müdaxilə etmək, insanların taleyi üzərindən geosiyasi oyunlar qurmaq niyyətləri iflasa uğradı..

Azərbaycanın Cənubi Qafqazda yaratdığı reallıqları özlərinin məhvi sayan, qəbul etməyən Ermənistanın da, Fransanın da utopiyaya əsaslanan əməkdaşlıqları elə erməni mifləri kimi göyə sovrulur. Ermənistanın "müqəddəs sərhədlərinin" qorunmasını ümdə vazifəsi hesab edən, daşnak təfəkkürlü Makronun neokolonializm siyasətini davam etdirməklə dünyada güc sahibi olmaq hikkəsinin sonu çatıb.

Bu gün Fransanın hərbi paltarlar geyinmiş "müsyö jordanlar"ının Azərbaycanda "ot toplamaq" imkanları da tükənib. Çünki canciyərləri, 30 ildə Azərbaycana qarşı ekoloji terrorlar törədən ermənilərin vəhşiliyi sahəsində fauna və florası dağıdılan ölkəmizin o bölgələrində qiymətli ot-ələf qalmayıb.

Təbii ki, bölgədə daimi sülhün yaranması üçün Azərbaycanın dəstəklənən sülh siyasətinin əksinə olaraq Ermənistanı yeni müharibəyə şirnikləndirən Fransanın Cənubi Qafqazda hegemonluq niyyəti baş tutan deyil. Qlobal və regional geosiyasi proseslərin kifayət qədər mürəkkəb hadisələrlə dolu olduğu zamanda Fransanın bölgəyə müdaxilə etməsi, hərbi missiya yaratmaq istəyi Ermənistan üçün intihardan başqa bir şey deyildir. Fransa siyasi, iqtisadi, diplomatik siyasəti beynəlxalq səviyyədə dəstəklənən Azərbaycanla müqayisə ediləcək imkanda, gücdə deyildir. Makronizmin dağıdıcı, qaniçən əməllərini üstələyən qüdrətli Azərbaycanın sülhə dəstək siyasəti daha inandırıcı, real və humanistdir.

Fransanın mədəniyyət nazirinin bu günlərdə Ermənistana səfəri də müəmmalıdır. İki ölkə arasındakı hərbi əməkdaşlığın mədəniyyət, humanitar sahəyə transferi şübhəli olsa da yenə də torbadakı pişiyin səsi eşidilir. Çünki fransalı nazir Ermənistana anti-Azərbaycan mövqeyi ilə tanınan, erməni lobbisinin sözçüsü kimi fəaliyyət göstərən fransız parlamentar, Fransa Milli Assambleyasındakı Fransa-Ermənistan dostluq qrupunun sədri Ann Lorans Petel ilə eyni təyyarədə gəlib. Yəni, erməni lobbisi faktiki olaraq naziri özü ilə gətirir və nazir məhz ona verilən məlumat və tezislər əsasında işini qurur. Bu səfər Fransanın pambıqla baş kəsmək şəkərinin Ermənistan variantıdır.

Ortaya maraqlı suallar çıxır. Bu səfərin məqsəd və məramı nədir? Fransalı nazir ölkəsinin Afrika, Cənub-Şərqi Asiya, Sakit Okean regionu və Latın Amerikasında müstəmləkəyə çevirdiyi, təbii sərvətlərini taladığı, tarixini və mədəniyyətini silməyə çalışdığı ölkələrlə bağlı faktların da UNESCO, AŞPA tərəfindən araşdırılmasını niyə təşviq etmir? Avropa Şurasının insan hüquqları üzrə komissarı Dunya Miyatoviç niyə bu ölkələrdə Fransanın etnik və dini zorakılıqlarını araşdırmır? Korsikaya faktaraşdırıcı missiya niyə göndərilmir? Ədaləti əks etdirəcək cavablar Azərbaycan üçün də maraqlı olar.

Yəni, Qərbin, erməni havadarlarının Azərbaycana qarşı iyrənc təxribata və yalançı kampaniyaya əl atmaları, əsassız bəhanələrlə ölkəmizi ittiham etmələri qısqanclıqdan başqa bir şey deyil. "Burada əsas skripkanı çalan Fransadır və bu, həm sözügedən ölkənin rəsmi şəxslərinin bəyanatlarında, həm Azərbaycanın diskreditasiya edilməsi cəhdlərində, həm də Azərbaycana qarşı aparılan və hər şeyin alt-üst şəkildə təqdim edildiyi media kampaniyasında özünü büruzə verir" söyləyən Prezident İlham Əliyevin vurğuladığı kimi, hələ də neokolonializm ruhu ilə yaşayan Emmanuel Makronun siyasətinə artan beynəlxalq ictimai nifrətdən pay düşən ölkə Ermənistandır. İkinci Qarabağ müharibəsindən sonra da Ermənistanı yeni müharibəyə təhrik edən, silahlandıran, ölkəmizə qarşı təxribatlarını davam etdirən rəsmi Parisin XXI əsrdə kolonial siyasətini Cənubi Qaqazda davam etdirmək niyyəti ən azından tarixin ironiyasıdır. Çünki kolonializm tarixində törədilən ən dəhşətli qırğınların müəllifi Fransadan fərqli olaraq Azərbaycanın multikultural dəyərlərə sadiqliyi, beynəlxalq səviyyədə həyata keçirdiyi humanitar siyasət beynəlxalq hüquqa hörməti bütün dünya dövlətləri tərəfindən dəstəklənir. Yəni, Fransa od olsa yalnız özünü yandıra bilər. Prezident İlham Əliyevin "Bizim Bayrağımız isə bax, oradadır. Bu, dərs olmalıdır onlara. Əfsuslar olsun ki, mənim 20 il bundan əvvəl dediyim və ondan sonra dəfələrlə təkrar etdiyim sözlər onlara çatmadı. Onlar hesab edirdilər ki, bu, sadəcə olaraq, sözdür. Xeyr, mən nəyi demişəmsə, onu da etmişəm, bunu hər kəs bilir, o cümlədən Ermənistanda da bunu bilirlər və bunu unutmasınlar. Vətən müharibəsini unutmasınlar!" sözləri Xankəndidən Parisə ünvanlanan mesajdır.

***Xuraman İsmayılqızı***

# Uşaq və gənclərin fiziki və mənəvi inkişafı hər zaman prioritetdir




Uşaq və gənclərin fiziki və mənəvi inkişafı hər bir cəmiyyətin, hər bir xalqın, hər bir ölkənin inkişaf göstəricisi olaraq görülür. Çünki ölkənin də, cəmiyyətin də gələcəyi məhz uşaq və gənclər, onların fiziki və mənəvi inkişafı ilə bağlıdır. ”Gənclər bizim gələcəyimizdir”, kəlamı ilə Ulu Öndər Heydər Əliyev bu reallığı, bu həqiqəti daha aydın şəkildə ifadə edib və Azərbaycanın öz müstəqilliyini bərpa etdiyi zamandan etibarən gənclər siyasətinə böyük önəm verilməsi də bu baxımdan heç də təsadüfi deyil. Məhz bütün bunlar nəzərə alınaraq, gənclər siyasətinin əsas istiqamətləri məhz Ümummilli Lider tərəfindən müəyyənləşdirilib və bu siyasət cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Uşaqlara dövlət qayğısının gücləndirilməsi, uşaq problemlərinə vətəndaş cəmiyyəti qurumlarının diqqətinin artırılması, ölkənin uşaqlarla bağlı demoqrafik perspektivlərinin müəyyənləşdirilməsi məqsədilə mütəmadi olaraq dövlət proqramlarının həyata keçirilməsi istiqamətində dövlət rəhbərimiz sərəncamlar imzalaması onu deməyə əsas verir ki, bu kontekstdə mühüm tədbirlər görülməkdədir. Ələlxüsus da, Azərbaycanda uşaq və gənclərin fiziki və mənəvi inkişafı üçün mühüm addımların atılması, görülən işlər, hətta əldə olunan nəticələr sözügedən sahənin ölkəmiz üçün əsas prioritetlərdən olduğunu təsdiq edir.

Uşaq və gənclərin fiziki və mənəvi inkişafı ilə bağlı bir sıra sənədlərin qəbul edilməsi, ələlxüsus da, 2005-2009-cu illəri əhatə edən gənclərlə bağlı Dövlət Proqramı, 2007-ci ilin ”Gənclər ili” elan edilməsi, ”2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramının təsdiq edilməsi” barədə ölkə rəhbərinin imzaladığı Sərəncam bu sahəyə diqqətin ən bariz nümunəsi və eləcə də təsdiqidir. Azərbaycan gənclərinin məhz dünyanın müxtəlif ölkələrində sayılb-seçilən, nüfuzlu universitetlərində təhsil alması, təhsilini layiqincə başa vurduqdan sonra yararlı mütəxəssis olaraq ölkəyə geri dönməsi elə bu diqqət və qayğının təzahürüdür. Dövlətin qayğısı sayəsində bir sıra imkanlardan yararlana bilən gənclərin sayı çoxdur və onlar minlərlədir, hansıki dövlətimizin diqqət və qayğısını hər an öz üzərində hiss edir.

Dövlətimizin uşaq və gənclərə diqqəti və qayğısı artıq öz bəhrəsini verməkdədir. Beləki, Azərbaycan gəncliyinin artıq beynəlxalq aləmdə seçilməyə başlaması nəticənin arzuolunan olduğunu göstərir. Bu nəticələrə görə də gəncliyimiz hətta dünya gənclər hərəkatının aparıcı qüvvələri arasında da yer almağa iddialıdır. Gənclərimizin beynəlxalq əməkdaşlığının son illərdə xeyli genişlənməsi, ikitərəfli və çoxtərəfli əlaqələrin olduğu dövlətlərin sayının artmaqda davam etməsi də təsadüfi deyil və sevindirici haldır. Məsələn, ”Dialoq və Əməkdaşlıq Uğrunda” İslam Konfransı Gənclər Forumu, GUAM ölkələrinin Gənclər Forumu, Dünya Türk Gəncləri Birliyi, Dünya Gənc Türk Yazarlar Birliyi və ”Böyük İpək Yolu” Beynəlxalq Gənclər İttifaqı kimi beynəlxalq gənlər platformalarının təşəbbüskarı, eləcə də təsisçisinin Azərbaycan gəncliyi olması ilə qürur duyuruq və həm də əmin oluruq ki, ölkəmizin apardığı gənclər siyasəti uğurlu nəticələr verməkdədir.

Gənclərin fizki inkişafı ilə yanaşı, həmçinin onların mənəvi cəhətdən inkişafı da vacib şərt hesab olunur. Hər bir uşağın, hər bir gəncin gələcəkdə layiqli vətəndaş olması olduqca önəmlidir və məhz bunun üçün uşaq və gənclərin mənəvi cəhətdən inkişafına da diqqət yetirilməlidir. Sözsüz ki, uşaq və gənclərin mənəvi cəhətdən inkişafında onların təhsili xüsusi rol oynayır. Ona görə ki, gənc nəslin mənəvi tərbiyəsində ailədən sonra ilk yeri məhz təhsil ocaqları, orta və ali məktəblər, universitetlər tutur. Valideynlərin öz övladlarına düzgün tərbiyə verməsi ilkin şərt olsa da, gənclərin hər mənada sağlam yetişməsində təhsil ocaqlarının özünəməxsus yeri vardır. Uşaq və gənclərimizin layiqli vətəndaş olmaları üçün təhsil ocaqlarında çalışan pedoqoji kollektivin, müəllimlərin xüsusi əməyi də diqqətdən yayınmamalıdır. Çünki tədris müəssisələrinin əsas vəzifəsi məhz gəncliyimizin milli ruhda, milli-mənəvi tərbiyədə yetişməsini təmin etməkdir və məhz bu baxımdan həmin müəssisələr, eləcə də o müəssisələrdə çalışan pedaqoqlar uşaq və gənclərin düzgün tərbiyə almalarına, gələcəkdə cəmiyyətə sağlam düşüncəli vətəndaş kimi inteqrasiya olunmalarına, şəxsiyyət olaraq formalaşmalarına, milli ruhda böyümələrinə, təhsilə məsuliyyətlə yanaşmalarına birbaşa cavabdehlik daşıyırlar.

Ölkə rəhbərimizin, cənab Prezident İlham Əliyevin hakimiyyəti dövründə böyüyən, fiziki, milli və mənəvi ruhda yetişən, inkişaf edən gənclərimizin 44 günlük Vətən Müharibəsində necə qəhrəmanlıq göstərdiklərinin bütün dünya şahidi oldu. Hər kəs müşahidə etdi və əmin oldu ki, vətən torpaqlarının hər qarışı üçün gəncliyimiz canından, qanından keçməyə hər an hazırdır. Şəhid və qazilərimiz sübut etdilər ki, Azərbaycan gəncləri necə vətənpərvərlik ruhunda, milli-mənəvi dəyərlərə hörmək və ehtiram hissi ilə yetişib, inkişaf edib. Sözsüz ki, bütün bunların da kökündə məhz ölkə Prezidentinin apardığı düzgün, düşünülmüş, məqsədyönlü siyasətin dayandığı qətiyyən təkzib edilə bilməz. Məhz bu siyasət, düzgün, düşünülmüş, məqsədyönlü siyasət ölkəmizin, onun torpaqlarının, ərazi bütövlüyünün, suverenliyinin gələcəkdə də daha etibarlı şəkildə qorunacağına indidən əmin olmağa əsas verir. Çünki belə bir uğurlu siyasətin yaradılması nikbin proqnozlara zəmin yaradır və əsas verir.

Azərbaycan Ordusunun əsasını təşkil edən Azərbaycan gəncliyi artıq dünyada sözünü demiş bir gənclikdir və bu gənclik öz Ali Baş Komandanının ətrafında sıx birləşib. Ölkəmizdə uşaq və gənclərin fiziki və mənəvi inkişafına göstərilən diqqət onu deməyə əsas verir ki, Azərbaycanın müstəqilliyinin qorunmasında, haqq səsinin dünyaya çatdırılmasında gənclərimiz, ölkə Prezidentinin ətrafında həmişə olduğu kimi, bundan sonra da, gələcəkdə də sıx birləşəcək və buna əminliyimiz kifayət qədərdir. Bu əminliyimiz isə, təbii ki, uşaq və gənclərin fiziki və mənəvi inkişafının hər zaman diqqət mərkəzində, eləcə də etibarlı əllərdə olmasına görədir. Çünki həm xalqımızın milli-mənəvi dəyərlərinə əsaslanan gənclər siyasəti dövlətimiz tərəfindən uğurla davam etdirilir, həm də uşaq və gənclərin layiqli vətəndaş kimi böyüməsi, təhsil alması, cəmiyyətdə mövqe tutması üçün Azərbaycan dövləti bütün imkan və şəraiti yaradıb. Nəzərə alınır ki, uşaq və gənclərin fiziki və mənəvi inkişafı hər zaman prioritet məsələdir.

***İnam Hacıyev***

## Süni intellektin inkişafı hansı mənfi hallara səbəb ola bilər?

*MÜNASİBƏT BİLDİRİLDİ*



“Müasir dünyada robotlar və süni intellekt həyatımızın müxtəlif sahələrində getdikcə daha çox nüfuz edir. Robotlar sənaye, tibb, təhsil və digər sahələrin ayrılmaz hissəsinə çevrilir. Robotlar həyatımızı daha rahat və məhsuldar etməklə yanaşı, həm də bir sıra mənfi cəhətləri daşıyırlar. İş yerlərinin məhdudlaşması və ya itirilməsi bu mənfi cəhətlərə misal ola bilər. Avtomatlaşdırma və robot texnikasının tətbiqi insanlar üçün kütləvi iş yerlərinin ixtisarına səbəb ola bilər”. Bu sözləri SİA-ya İnformasiya Kommunikasiya Texnologiyaları üzrə ekspert Fərhad Mirəliyev deyib.

Ekspert düşünür ki, əvvəllər əl işi tələb olunan iş yerlərinin tədricən robotlarla təchiz edilməsi, gələcəkdə böyük işsizlər ordusunun yaranmasına rəvac verəcək: ”Yaranmış kütləvi işsizlik və gəlirlərin azalması isə sosial və iqtisadi problemlərə yol açacaq. Robot texnikasının inkişafı ilə etik problemlər mövzusu haqqında tez-tez danışılır”.

”Robotlar hərbi məqsədlər üçün və ya tibbi əməliyyat zamanı kritik qərarların verilməsində nəyə istinad etməlidirlər. Bəzi mütəxəssislər robotlar və suni intellekt üçün xüsusi davranış kodeksinin hazırlanmasının tərəfdarıdır. Məlumatların məxfiliyi və təhlükəsizliyi ilə bağlı da kifayət qədər narahatlıq mövcuddur, çünki robotlar və süni intellekt böyük miqdarda şəxsi məlumatı toplayıb emal edə bilir”,- deyə o əlavə edib.

***Ləman Sərraf***

# Türk dövlətləri vahid platformada

## Prezident İlham Əliyev: "Təşkilatımız beynəlxalq səviyyədə böyük siyasi çəkiyə və nüfuza malikdir"

**"Türk dövlətləri ilə münasibətlərin möhkəmləndirilməsi Azərbaycan xarici siyasətinin əsas prioritetlərindən biridir". Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında Astanada keçirilən 10-cu yubiley Zirvə görüşündə çıxışında deyib. Etnik və mədəni köklərimizin, dilimizin, ortaq keçmişimizin münasibətlərimizin təməlini təşkil etdiyini vurğulayan dövlətimizin başçısı bildirib ki, 2009-cu ildə Naxçıvan Zirvə görüşündən ötən müddət ərzində müxtəlif sahələrdə əməkdaşlığımız təsisatlanıb, Türk Dövlətləri Təşkilatı uğurlu inkişaf yolu keçib.**

Xatırladaq ki, Azərbaycanın bu istiqamətdə töhfələrindən biri də Türk Şurasının yaradılması ilə bağlı sazişin məhz ölkəmizdə imzalanmasıdır. 2009-cu ildə Azərbaycanın Naxçıvan şəhərində keçirilən toplantıda imzalanan Sazişə əsasən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası yaradılıb. Saziş Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə prezidentləri tərəfindən imzalanıbdır. Ötən müddət ərzində bu əlaqələr genişlənib. Naxçıvan sazişinin imzalanmasından keçən dövr ərzində görülən işlər, qarşılıqlı səfərlər türk dövlətləri arasında inteqrasiyanı dərinləşdirmək üçün səmərəli platformaya çevrilib.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşünü xüsusilə qeyd etməliyik. Qəbul olunan tarixi qərarlarla yadda qaldı. Zirvə görüşündə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının adının "Türk Dövlətləri Təşkilatı"na dəyişdirilməsi haqqında Qərar, Türkmənistana Türk Dövlətləri Təşkilatında müşahidəçi statusunun verilməsi haqqında Qərar, Azərbaycan Respublikası Prezidentinin "Türk Dünyasının Ali Ordeni" ilə təltif edilməsi haqqında Qərar, Türk Şurası VIII Zirvə Görüşünün Bəyannaməsi və digər qərarların imzalanması tarixi hadisə olaraq əhəmiyyət daşıyır. "Bu gün təşkilatımız beynəlxalq səviyyədə böyük siyasi çəkiyə və nüfuza malikdir" - deyən Prezident son iki il ərzində Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi dövlətlərə 20 səfər həyata keçirdiyini vurğulayaraq qardaş dövlətlərin rəhbərlərinin də həmin dövrdə Azərbaycana çoxsaylı səfərlər etdiklərini bildirib. Azərbaycan Prezidenti Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsinə verilən dəstəyə görə minnətdarlığını bildirib. Bu barədə məlum qərar Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurasının Türkiyənin Bursa şəhərində keçirilən iclasında qəbul olunmuşdu. Azərbaycanın qədim mədəniyyət ocaqlarından biri olan Şuşa şəhərinin 2023-cü il üçün "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan olunması əlbəttə ki, qürurvericidir. TÜRKSOY tərəfindən Şuşanın 2023-cü il üçün "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan edilməsi Türk-İslam dünyasının Azərbaycanın qədim şəhərinin mədəni zənginliyinə diqqətinin göstəricisidir. Azərbaycana dahi sənətkarlar, mədəniyyət xadimləri bəxş etmiş Şuşa şəhərini dirçəltmək, buraya yeni nəfəs gətirmək çox zəruridir.

### "AZƏRBAYCAN TÜRK DÖVLƏTLƏRİNİN İQTİSADİYYATINA 20 MİLYARD ABŞ DOLLARINDAN ÇOX SƏRMAYƏ QOYMUŞDUR"

Son illərdə Türk dövlətləri arasında əlaqələr bütün sahələrdə intensiv xarakter alıb və dövrün tələblərinə, baş verən proseslərə uyğun olaraq sürətlə inkişaf etdirilir. "Azərbaycan türk dövlətlərinin iqtisadiyyatına 20 milyard ABŞ dollarından çox sərmayə qoymuşdur. Bunun əsas hissəsi Türkiyəyə qoyulan sərmayədir", - deyən Prezident ölkələrimiz arasında birgə sərmayə fondlarının yaradılması prosesinin başlandığını vurğulayaraq bildirib ki, Azərbaycan-Özbəkistan İnvestisiya Fondu və Azərbaycan-Qırğızıstan İnkişaf Fondu təsis olunub: "2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 2023-cü ilin yanvar-sentyabr aylarında Azərbaycanın türk dövlətləri ilə ticarət



dövriyyəsi 40 faiz artıb". - deyə Prezident İlham Əliyev vurğulayıb.

Statistik rəqəmlərə istinadən deyə bilərik ki, Ümumilikdə 4,8 milyon kvadratkilometr əraziyə, 1,4 trilyon ABŞ dolları dəyərində ümumi daxili məhsula və 855 milyard ABŞ dollarından çox ticarət dövriyyəsinə malik türk dövlətləri böyük iqtisadi potensiala, enerji resurslarına, nəqliyyat yollarına və müasir hərbi imkanlara malikdir. Türk dövlətləri dünyanın ümumi ticarət dövriyyəsinin 2,4 faizini və qlobal ümumi daxili məhsulun 1,6 faizini təşkil edir. "Münasibətlərimizin inkişafı kontekstində nəqliyyat və logistika sahələri mühüm yer tutur. Azərbaycan Mərkəzi Asiya ölkələri ilə Türkiyə və Avropa bazarları arasında etibarlı tranzit ölkə kimi özünü təsdiqləyib" - deyən Prezident Azərbaycan Şərq-Qərb Nəqliyyat Dəhlizinin dayanıqlı fəaliyyətinə öz dəyərli töhfəsini verdiyini qeyd edib.

Xatırladaq ki, istismara verilən Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri Xəzər neftini və qazını dünya bazarlarına çıxarır. Orta Asiyanın karbohidrogen ehtiyatları Xəzər dənizi və Azərbaycan vasitəsi ilə dünya bazarlarına nəql edilir. Aktau və Bakı dəniz limanları arasında gəmi daşınmalarının inkişafını da vurğulamalıyıq. 2013-cü ildə Bakı, Aktau və Samsun beynəlxalq dəniz limanları arasında Türk qardaş limanları haqqında Anlaşma Memorandumu imzalanmışdır. Aktau və Bakı dəniz limanları arasında gəmi daşınmaları inkişaf etməkdədir. Bakı - Aktau bərə yolu ilə neftlə yanaşı dəmir yol vaqonları, avtomobil, taxıl və s. Yüklərin daşınmaları da yerinə yetirilir. Aktau portundan Qazaxıstanın şimalını birləşdirən 400 km-lik dəmir yolu kənd təsərrüfatı məhsulları və s. daşınmasını xeyli səmərəli edir.

### "AZƏRBAYCAN BÜDCƏSİNDƏN 7 MİLYARD ABŞ DOLLARI HƏCMİNDƏ VƏSAİT SƏRF EDİLİB"

Təşkilat hər zaman Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişə ilə bağlı Azərbaycanın haqlı mövqeyini dəstəkləmişdir.

TDT-yə üzv ölkələr arasında yaxın dostluq və qardaşlıq əlaqələrinin olması, onların bir-birini qarşılıqlı şəkildə dəstəkləməsi təşkilatın inkişaf perspektivlərini şərtləndirən əsas amillərdən biridir. Belə ki, hələ 2020-ci ildə Vətən müharibəsi zamanı bəziləri hətta Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olmasına baxmayaraq, türk dövlətləri Azərbaycanın haqlı mübarizəsinə öz dəstəklərini verdilər. 2020-ci il türk dünyası üçün yadda qalan oldu. Belə ki, türk dünyasının önəmli uğurları, ən başlıcası Azərbaycan ərazilərinin işğaldan azad olunması, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün bərpa edilməsi əhəmiyyətli hadisədir.

Azərbaycan tarixi Zəfərdən sonra azad olunan ərazilərimizdə abadlıq-quruculuq işlərini davam etdirir. Zəfər qazanan Azərbaycan Qarabağımızda, Şərqi Zəngəzurda böyük quruculuq işlərini davam etdirir. Şuşada, Zəngilanda, Laçında və digər ərazilərdə aparılan genişmiqyaslı abadlıq-quruculuq işləri işğaldan azad olunan hər bir şəhər, qəsəbə və kəndi müasir məkana çevirir. Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın bu ərazilərimizə səfərləri zamanı görülən işlərlə tanışlıq və təməlqoyma mərasimlərinin keçirilməsi böyük abadlıq-quruculuq işlərinin davamı olmaqla yanaşı, görülən işlərin sürətlə aparıldığını bir daha təsdiqləmiş olur. Tamamilə yeni bir dövr yaşanılır və bu torpaqların əzəli sakinlərinin işğaldan azad edilmiş torpaqlara mərhələ-mərhələ qayıdışı böyük canlanmaya səbəb olub. Ağalı kəndinə əhalinin köçürülməsi Böyük Qayıdışın ilk sorağı idisə, artıq bu istiqamətdə aparılan işlərin məntiqi olaraq köç karvanları digər ərazilərimizə mərhələli olaraq da yol alırlar. Ağalı, Talış kəndi, sonra isə Laçın, Füzuli

Hər bir ərazidə böyük abadlıq-quruculuq işlərinə başlanılıb. Artıq işğaldan azad olunan ərazilərimizdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında genişmiqyaslı yenidənqurma, bərpa-quruculuq işləri davam etdirilir. İşğaldan azad olunan ərazilərin bərpası və Böyük Qayıdışın yüksək səviyyədə təmin edilməsi məqsədi ilə ardıcıl işlər görülür. Azərbaycan Prezidenti İlham Əliyevin həmin ərazilərə səfər etməsi və bərpa-quruculuq işləri ilə şəxsən maraqlanması, istehsal müəssisələrinin, sosial obyektlərin təməlqoyma, açılış mərasimlərində iştirak etməsi görülən işlərin sürətini artırmaqla yanaşı, keyfiyyətinin də yüksək olmasından xəbər verir. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən, abadlıq-quruculuq işləri sırasında yolların yenidən qurulması, müasir səviyyəyə çatdırılması istiqamətində çox mühüm layihələr icra olunur. "Üç il əvvəl Vətən müharibəsi başa çatdıqdan dərhal sonra Azərbaycan işğaldan azad olunmuş ərazilərində genişmiqyaslı bərpa-quruculuq işlərinə başladı" - deyən Prezident diqqətə çatdırıb ki, bu məqsədlə artıq Azərbaycan büdcəsindən 7 milyard ABŞ dolları həcmində vəsait sərf edilib: "Növbəti il ən azı 2,4 milyard ABŞ dollarının ayrılacağı nəzərdə tutulur". Böyük Qayıdış Proqramının icra olunduğunu vurğulayan dövlətimizin başçısı qeyd edib: "Artıq keçmiş məcburi köçkünlər - bu torpaqların əsl sahibləri Laçın və Füzuli şəhərlərinə və üç kəndə qayıdıb. 2026-cı ilin sonunadək Qarabağa və Şərqi Zəngəzura 140 mindən artıq insanın geri dönməsi nəzərdə tutulur".

### DOSTLUĞUN VƏ QARDAŞLIĞIN TƏZAHÜRÜDÜR

Bildiyimiz kimi, üzv dövlətlər Azərbaycanın Qarabağda və Şərqi Zəngəzurda apardığı bərpa-yenidənqurma işlərinə də öz töhfələrini verirlər. Bu baxımdan Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq Füzulidə inşa edilən və bu yaxınlarda açılışı baş tutan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəb, Qazaxıstan tərəfindən tikiləcək Füzulidə Kurmanqazı adına Yaradıcılığın İnkişafı Mərkəzi, Cəbrayılda yaradılan Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzini, Zəngilanda birinci mərhələsi açılan "Dost Aqropark" ağıllı kənd təsərrüfatı kompleksini və s. qeyd etmək olar. Azərbaycan Prezidenti Füzuli şəhərində inşası başa çatmış məktəbə görə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevə və inşa edilən yaradıcılıq mərkəzinə görə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevə təşəkkürünü bildirərək deyib: "Bunlar Azərbaycan və Özbəkistan, Azərbaycan və Qazaxıstan xalqları arasında olan dostluğun və qardaşlığın təzahürüdür". Ortaq soy-kök, ortaq tarix və mədəniyyət, milli dəyərlər, eyni zamanda, üzv ölkələr arasında qarşılıqlı dəstək, mövcud potensial və həyata keçiriləcək layihələr Türk Dövlətləri Təşkilatının rolunu daha da artırır və onu dünyanın aparıcı beynəlxalq qurumlarından birinə çevirir.

***Zümrüd BAYRAMOVA***

## "Azərbaycan Türk Dövlətləri Təşkilatının ən fəal üzvlərindəndir"

### *KOMİTƏ SƏDRİ ŞƏRH ETDİ*



Türk Dövlətləri Təşkilatı türk dövlətlərinin ortaq təlelərinin, məqsədlərinin birliyi, qarşıda duran məqsədlərinin müəyyənləşdirilməsi və reallaşdırılması üçün mühüm bir platformadır. Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.

Komitə sədri qeyd edib ki, keçirilən zirvə görüşləri iqtisadi, sosial, mədəni əlaqələrin möhkəmləndirilməsi, təhlükəsizliyin təmin edilməsi, inkişafa doğru yeni istiqamətlərin müəyyən olunması baxımından çox əhəmiyyətlidir. "Yeddi dövlətin iştirakı ilə keçirilən görüşlərdə sözsüz ki, günün ən vacib məsələləri müzakirəyə çıxarılır, problemlərin aradan qaldırılması üçün təkliflər irəli sürülür və ölkələrin milli mənafeləri önə çəkilməklə, münasibətlər formalaşdırılır. Türk Dövlətləri Təşkilatının onuncu yubiley zirvə görüşü bunu bir daha təsdiq etdi. Çünki bu görüşlər bilavasitə türk dövlətlərinin birliyinə və gələcək inkişafına xidmət edir. Dövlətlər nəinki iqtisadi məsələləri müzakirə edir, həm də reallıqlara uyğun olaraq baş verən hadisələrə öz münasibətlərini ortaya qoyur və hər bir dövlətin təhlükəsizliyi üçün zəmin hazırlayırlar.

Sözsüz ki, iqtisadiyyat möhkəm olmadan dövlətlərin inkişafı mümkün deyil və bu görüşlərdə beynəlxalq münasibətlərə önəm verilməklə bərabər, həm də sərmayə qoyuluşu, iqtisadiyyatın inkişaf etdirilməsi, ixrac məsələlərinin gündəmə gətirilməsi diqqət mərkəzində saxlanılır. Azərbaycan Türk Dövlətləri Təşkilatının ən fəal üzvlərindən biridir və onun tədbirlərində yaxından iştirak edir. Bu dəfə də cənab Prezident İlham Əliyev zirvə görüşündə bunu bir daha bildirdi və özünün çıxışı ilə dünyaya bir daha bəyan etdi ki, Azərbaycan dövləti, Azərbaycan Prezidenti sülhün, əmin-amanlığın əməkdaşlığın, dostluğun tərəfdarıdır və daimi olaraq, bu istiqamətdə lazım olan bütün tədbirləri həyata keçirəcək. Əlbəttə ki, bu prosesdə Türk Dövlətləri Təşkilatı da yaxından iştirak edir və onların birgə səyləri dünyada sülhün təmin olunmasına böyük töhvələr verə bilər. Məhz bu baxımdan Türk Dövlətləri Təşkilatının onuncu zirvə görüşü böyük əhəmiyyət kəsb edir və bu bilavasitə xalqların gələcəyi üçün çox faydalıdır", deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***

# Şəhidləri ilə qürur duyan Vətən

**30 ilə yaxın həsrətlə gözlədiyimiz torpaqlarımız bu gün dirçəlir. O yerlərə yeni nəfəs gəlib. Xarı bülbülümüz nigaran baxışlarını yollardan çəkib, hər gəlib-gedən əzəli sakinlərinə "Xoş gəldin", - deyir. Təbiət də oyanıb. Bu oyanış böyük bir müjdəyə susuz idi. 44 gün davam edən Vətən müharibəsində qəhrəmanlıq göstərən vətən oğullarının şücaəti, mücadiləsi milyonlarla insanlara QƏLƏBƏ sevincini yaşatdı. Gözün aydın, AZƏRBAYCAN! - deyirik bir daha.**

Bu elə bir gündür ki, zaman-zaman Azərbaycan xalqının torpaq uğrunda savaşını, böyüklüyünü, bütövlüyünü, lazım gələndə bir yumruq olaraq birləşməsini yetişən nəsillərə illər, qərinələr, əsrlər sonra belə təqdim edəcək. Bu qələbədə minlərlə azərbaycanlı gəncin payı var. Azərbaycanın qələbə sorağı dünyaya yayıldı. Zəfər günümüzü yaşadıq. Xalqımız üçün bundan sevincli gün nə ola bilərdi ki? Artıq bu gün tarixiləşdi. Müstəqil Azərbaycan dövlətinin vətənpərvər gəncləri Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünün qorunması yolunda vuruşdular. Hər qarış torpağın müdafiəsində dayandılar və Şəhid də oldular, qazi də. Azərbaycan tarixi ədaləti bərpa etdi. Şərəfli yol seçərək, şəhidlik zirvəsinə yüksələn oğullar Vətən savaşında şücaət göstərərək, düşmənə dönməzliyini sübut edərək vətən qarşısında öz borclarını vermiş oldular. Hərb meydanında igidlik göstərən, vətən torpağını düşməndən qanı, canı bahasına azad edən Azərbaycan bayrağını uca tutan vətən oğullarının bu qələbənin qazanılmasında rolu danılmazdır. Onların hər biri ilə qürurlanır, onlara borcluyuq.

Azərbaycan xalqı şəhadətə qovuşan oğullarını heç vaxt unutmur və onlar qəlblərdə bir taxt, yuva qurublar. Qəhrəmanlıq şücaətləri ilə bir evin yox, bir obanın övladına çevrildilər. Qısa ömürlə yüzilliklərə adlarını qovuşdurdular. Minlərlə Vətən oğlu Vətən müharibəsində haqq savaşında şəhid oldular. Bu qəhrəmanlıq tarixidir, 44 günün tarixi. Zirvədən-zirvəyə yüksəldilər, xalqın Zəfər tarixini yazdılar. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etdi. Artıq Zəfər tariximizə doğru addımlayırıq. İki il bundan əvvəl silaha sarılmış oğullarımız sıldırımlı yolları aşaraq, soyuğa baxmayaraq irəliyə doğru addımlayırdılar. Geri qoyduqları ana, ata, övlad, qarşıda isə işğaldan azad olunacaq torpaqlarımız onları gözləyirdi. Minlərlə vətən oğlu torpağımızın hər qarışı uğrunda şəhid oldular. Ən ali bir zirvədə şəhidlik zirvəsində əbədiləşdilər. Heç bir hiss onları məsləklərindən geri döndərmədi. Belə igidlərdən biri də noyabr ayının 4-ü Laçının Xanalılar kəndində şəhid olan və şəhid general-mayor Polad Həşimovun yaxın dostu, döyüş yoldaşı olan polkovnik leytenant Tağıyev Ruslan Fuad oğludur.



O, 1982-ci ildə iyun ayının 12-də İsmayıllı rayonunun Qubaxəlilli kəndində dünyaya göz açıb. İsmayıllı rayonu 3 saylı orta məktəbdə təhsilini başa vurub. 1999-cu ildə Heydər Əliyev adına Ali Hərbi Məktəbə daxil olub. 2004-2005-ci illərdə Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunda "N" saylı hərbi hissədə tabor kəşfiyyat tağım komandiri, 2005-2010-cu illərdə Kəngərli rayonunda "N" saylı hərbi hissədə kəşfiyyat bölük komandiri, 2010-2012-ci illərdə Culfa rayonunda "N" saylı hərbi hissədə kəşfiyyat bölmə rəisi olub.

2012-2014-cü illərdə Ali Hərbi Akademiyada təhsilini davam etdirir. 2014-2017-ci illər arasında Şəmkir rayonu "N" saylı hərbi hissədə kəşfiyyat şöbə rəisinin baş köməkçisi rəisi, 2017-2020-ci illər arasında Müdafiə Nazirliyində müxtəlif vəzifələrdə çalışıb. Vətənə xidməti ərzində bir sıra sertifikatlar, medallar və təşəkkürnamələr ilə təltif olunub.

## 21 İLLİK VƏTƏNƏ QÜSURSUZ XİDMƏT

2019-cu ilin fevral və iyun aylarında ikili razılaşma əsasında Çinin Pekin şəhərində ölkəmizi təmsil edib və hərbi biliklərini artırmaq məqsədilə təhsilini davam etdirib. 2020-ci ilin oktyabrında isə Türkiyəyə doktorantura təhsili almağa yollanacaqdı. Lakin Vətən müharibəsi başlayan zaman övladları olan Fuad, Polad və 3 yaşlı Nurayı həyat yoldaşına əmanət edərək, ezamiyyətə gedirəm, deyir, ailəsi bir neçə gün sonra onun döyüşdə olduğunu öyrənir. Atası ilə söhbəti zamanı bu sözləri deyir: "Sizdən bizə qalan bu yükü övladlarımıza miras qoymamalıyıq".

Həyat yoldaşı dəfələrlə diqqətli, ehtiyatlı olmağı ona tapşırsa da polkovnik-leytenant şəhidlərin heç birindən artıq olmadığını bildirir. Qardaşı Həsən Tağızadənin sözlərinə görə, "Verilən məlumatlara əsasən, onun artilleriya atəşinə tutulan əraziyə tək başına "pikap" tipli nəqliyyat vasitəsilə gedərək şəhidləri, yaralıları, üzvləri qopmuş yaralıları çıxardığını bilirik".

Vətən uğrunda canını fəda edən igid zabitimiz Vətən müharibəsində bir çox strateji yüksəkliklərin alınmasında fəal şəkildə iştirak edir. Füzuli, Zəngilan, Cəbrayıl rayonlarında gedən şiddətli döyüşlərdə iştirak edir, son döyüşü isə Laçının Xanalılar kəndində olur. Döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olur. 38 illik ömrünün 21 ilini vətənə xidmət edir və 21 illik vətənə qüsursuz xidməti ilə bağlı Vətən müharibəsindən əvvəl medal ilə təltif olunur.

## ƏSRLƏRİN YADDAŞINA KÖÇƏN RUSLANLAR

Bəli, işğal altında olan torpaqlarımızın azad olunmasında qəhrəmancasına vuruşur. Xocalı faciəsinin, Ağdaban, Başlıbel qətliamlarını yaşamış bir xalqın intiqam, qisas harayı onu rahat buraxmırdı. Mübarizlər yetirən Azərbaycan müqəddəs torpaqlarımızın işğaldan azad olunması yolunda Ali Baş Komandanını əmrini gözləyirdilər. Hamı Prezidentin ətrafında bir yumruq olaraq birləşdilər. Sonu Zəfər olan işıqlı bir yol bizi gözləyirdi. Minlərlə Vətən oğlu şəhid oldu, qazi mərtəbəsinə yüksəldi. Ərənlik, şücaət göstərdilər. Şuşa cəngavərləri, Şuşa qartalları, hər qarışın işğaldan azad olunmasında qanı tökülən oğullar. Qisas aldınız, sizin də qisasınız alındı. Ruhunuz şad olsun, igid Vətən oğlulları, Azərbaycan sizi heç vaxt unutmayacaq. Ruslan Tağıyev! Bu isim, soyad bizlərə qəhrəmanlıq məktəbində bir salnamə yazmış Vətən oğlu haqqında hər şeyi demiş olur. Düşmənin üstünə gedən və ona həddini bildirən Ruslanların ərənliyi ilə bu gün torpaqlarımız əzəli sakinlərinə qucaq açıb. Bu torpaqlarda yüzlərlə, minlərlə Ruslanlar boy atacaq. Qan qoxuyan torpaqlarda ayaq açanlar vətən müqəddəsliyini daha dərindən anlayacaqlar. Biləcəklər ki, bu torpağı əkib-becərmək, qurub-yaratmaq, ona nəfəs verib nəfəs almaq gərəkdir. onu qorumaq gərəkdir. Vətən onlarla qürur duyur. Əsrlərin yaddaşına köçən Ruslanları ilə.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Konstitusiyamız dövrün tələblərinə uyğunlaşdırılıb"

"Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra hakimiyyətdə 1993-cü ilə qədər bir-birini əvəz etmiş qüvvələr bütün sahələrdə olduğu kimi, hüquqi islahatlar məsələsində də kifayət qədər geri qalmış, ümumiyyətlə, bu proses arxa plana keçmişdi. Lakin Ulu Öndərin Azərbaycan Respublikasında xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıtması ilə bütün sahələrdə olduğu kimi, hüquqi islahatlara da start verilmiş, 1995-ci ildə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edilmişdir. Azərbaycan Konstitusiyası bu gün əhatə dairəsi və bütün digər parametrlər baxımından dünyanın ən müasir və ən yetkin konstitusiyalarından biridir". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Bəhruz Məhərrəmov deyib.




Onun sözlərinə görə, zaman keçdikcə hüquq münasibətləri də müəyyən transformasiyalara məruz qalır və hüquqi aktların dəyişikliklərə uyğunlaşması labüddəşir: "Bu mənada, Azərbaycan Respublikasının Konstitusiyası dəfələrlə ümumxalq səsverməsi yolu ilə öz müddəalarını yeniləmiş və dövrün tələblərinə, ictimai çağırışlara uyğunlaşmışdır.

Sonuncu belə referendum 7 il öncə baş tutmuş, Azərbaycan vətəndaşları irəliyə sürülmüş təkliflərə birmənalı şəkildə öz dəstəyini vermişdir. Lakin bildiyiniz kimi, 7 il ərzində istər regionda, istər ölkə daxilində, bütövlükdə hüquq münasibətləri zəminində müxtəlif aspektlərdən yeniliklər müşahidə olunmaqdadır".

"Bu mənada, Azərbaycan Respublikasının mövcud Konstitusiyasında da yeni yanaşmalara ehtiyac duyulmaqdadır. Xüsusən möhtərəm cənab Prezidentin rəhbərliyi altında əldə olunan ciddi geosiyasi nailiyyətlər, torpaqlarımızın işğaldan azad olunması, ərazi bütövlüyümüzün, sərhəd bütövlüyümüzün təmin olunması, separatizmə son qoyulması və Azərbaycanın bölgənin lider dövlətinə çevrilməsi fonunda yeniliklər xüsusilə gözə çarpmaqdadır.

Digər tərəfdən dövlət idarəçiliyində yeni institutların tətbiqi, həmçinin ən müasir üsul və vasitələrə müraciət edilməsi qanunvericilikdə bu sahədə tənzimləmələrlə bağlı müvafiq addımların atılmasını zərurətə çevirib. Əvvəlki dövrün təcrübəsinə müraciət etsək, deyə bilərik ki, Konstitusiyaya yeni nəfəs verilməsi gözləniləndir. Lakin proses kifayət qədər əhatəli araşdırma və təhlil tələb etdiyi üçün prosesin zamanı və detalları barədə proqnozlar vermək məqsədəuyğun deyil",- deyə o əlavə edib.

***Ləman Sərraf***

# Xaricdə təhsil alan daha 117 nəfərin diplomu tanınmayıb

Xaricdə təhsil alanların diplomlarının tanınması ilə bağlı oktyabr ayı üzrə 729 müraciətçinin 612-si barədə müsbət qərar verilərək müvafiq şəhadətnamələr təqdim edilib, 117 nəfərin müraciəti isə mənfi qərarla yekunlaşıb. Təhsildə Keyfiyyət Təminatı Agentliyindən SİA-ya verilən xəbərə görə, tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində kifayət qədər olmaması səbəbi ilə 99, təhsilalma forması üzrə 10, dövlət nümunəli olmayan diplom üzrə 3, digər səbəblər üzrə 5 nəfərin müraciəti mənfi qərarla yekunlaşıb.



Ölkələr üzrə müraciətlərin sayına nəzər saldıqda Ukraynadan 261, Rusiya Federasiyasından 197, Türkiyə Respublikasından 132, Gürcüstandan 54, Belarus Respublikasından 40, digər ölkələrdən isə 45 müraciətin olduğu müşahidə olunur.

Ən çox müraciət olunan ixtisaslara gəlincə, hüquqşünaslıq üzrə 68, maliyyə üzrə 63, yanğın təhlükəsizliyi mühəndisliyi üzrə 45, menecment üzrə 45, iqtisadiyyat üzrə 43 müraciətçi qeydə alıb. Bildirilir ki, sənədlərə ortalama baxılma müddəti 15 iş günü təşkil edib.

Qeyd edilik ki, Dövlət İmtahan Mərkəzi tərəfindən təşkil olunan peşə tanınması imtahanında iştirak edən müraciətçilərin 47%-i imtahanda uğurlu nəticə göstərərək akademik və peşə tanınması ilə bağlı şəhadətnamə əldə edib. Müraciətçilərin 53%-i isə imtahanda keçid balı toplamayıb və yalnız akademik tanınma ilə bağlı şəhadətnamə əldə ediblər.

# Qızı qohuma verəndə...

**Qohum nikahlar bir-biri ilə qohumluq əlaqəsi olan insanların ailə qurmasına verilən addır. Evlənən və nəsil verən şəxslər arasında valideyn-övlad əlaqəsi varsa, gələcək nəsildə xəstəlik ehtimalı büyükdür.**



### Xəstəliyi dəvət edən insanlar

Təkamül prosesindən az-çox anlayışımız olduqda "qohumluq" anlayışını analiz edirik və anlayırıq ki, yer üzündəki bütün insanlar əslində bir-biri ilə qohumdur, sadəcə, yaxınlıq və uzaqlıq dərəcələri, nəsil mərhələləri vacibdir. Qohum nikahı anlayışı yaxın qan qohumluğu olan və ortaq nəsildən olan şəxslər arasında qohumluq əlaqəsi deməkdir.

İnsanlar öz əmisi oğlu, bibisi qızı, dayısı oğlu, xalası qızı ilə evlənmənin gələcək uşaqları üçün zərərli ola biləcəyini başa düşməzdən əvvəl, genetikanın nə olduğunu, ailələrdə xəstəliklərin necə baş verdiyini başa düşməlidirlər. Əslində, qohum evliliklərinin özü də bu genetik pozğunluqların əsas səbəbi deyil, daha çox təkan verən, xəstəliyi qıcıqlandırıb oyadan amildir. Xəstəliyi resessiv şəkildə daşıyan iki fərd ayrı-ayrılıqda nikaha girsə belə, onların uşağının bu xəstəliyə tutulma ehtimalı 25% civarında olacaq.

Lakin eyni nəsil daxilində qohum nikahlarının artması və bu qohumların övladlarının çoxluğu xəstəliklərin inkişaf riskinin artmasına səbəb olur. Bu resessiv genlərin daha tez-tez birləşməsi anadangəlmə qüsurların və ölümlərin əsas səbəbidir. Genetik problemlərin əhəmiyyətini də belə başa düşə bilərik: qadınların 50%-i normal hamiləlik yaşaya biləcək orqanizmə sahib olmalarına baxmayaraq, bunu yaşaya bilmir, çünki qohum nikahındadır, onların doğulmamış uşaqları resessiv olan genetik anormallıqlar səbəbindən ya anomaliya ilə doğulur, ya da hamiləlik yarıda pozulur.



### Ata-anadan aldığımız genlər eyni olarsa...

İnsanlarda 22 cüt autosom və ya cinsiyyət xromosomu və 1 cüt cinsi xromosom (oğlanlarda XY, qızlarda XX) var. Doğulmamış uşaq genini hər iki valideyndən, yarısını atadan, digər yarısını isə anadan alır. Fərdlər arasındakı fərqlərin səbəbləri daha çox hüceyrələrdə mayoz prosesi zamanı genlərin rekombinasiyası ilə bağlıdır. Bundan əlavə, mutasiya halları və müstəqil variasiyalar da bir insanı digərindən fərqləndirən genetik dəyişikliklərə səbəb olur.

Bu nə deməkdir? Bəzi genlərimiz tərəfindən kodlaşdırılan fiziki, fizioloji və ya davranış xüsusiyyətlərimizin düzgün işləməsi üçün hər iki valideynimizdən aldığımız genin normal işləməsi şərtdir. Bizi kodlayan genlərdən yalnız biri işləsə belə, ona tabe göstəricilərimiz normal inkişaf edə və və orqanizmimiz işləyə bilər. Lakin aldığımız 2 qüsurlu gen olduqda genetik xəstəliklər baş verir. Yəni, əgər tərəflər qohum olmasa idi, əgər ikisindən birinin genində problem olsa idi belə, dünyaya gələcək uşaqların orqanizmi çox zərər görməzdi. Lakin tərəflər qohumdur və eyni xəstə geni daşıyırlar və dünyaya gələcək övladlarına eyni geni ötürürlər, bu zaman mutasiya problemləri yaranır. "Autosomal resessiv" genetik xəstəliyi olan bir şəxsin bu xəstəliyi daşımasının səbəbi hər iki valideynindən zərərli mutasiyaya malik eyni geni miras alması deməkdir.

### Qohum evlilikdə nəsilartırma riski

Qohum evliliklərinin nəsil davamlılığı risk altında olur. Əgər ailədə qohum nikahı olmayıbsa və ilk qohum nikahı gerçəkləşirsə onların anadangəlmə qüsurlu uşaqlarının doğulma nisbəti 3%-dən 4-5%-ə qədər artır. Ölüm göstəriciləri qohum nikahı olmayanlara nisbətən 3,5-4,4% yüksəkdir. Lakin ailə daxilində qohum nikahlarının tezliyi və sayı artdıqca bu faizlər də artır.

Məsələn, əmiuşağı, xalauşağı, bibi-dayı uşaqları evliliklərinin nisbətinin 50%-i keçdiyi düşünülən Pakistanda bu nikahlardan doğulan uşaqların ölüm nisbəti 7,9% təşkil edir. Qohum evliliyi olmayan ailələrdə doğulan uşaqlarda bu ölüm nisbəti təxminən 5,1% təşkil edir. İkiqat birinci dərəcəli qohum nikahından doğulan uşaqlarda ölüm səbəblərinin 41,2%-i resessiv genlərlə bağlıdır. Yəni qohum nikahından doğulan uşaqlar da böyüyüb qohumla nikaha girirsə bu təhlükə 41 faizi ötür. Bu nisbət qohum evliliyi nəticəsində doğulan pakistanlı uşağın digər uşaqlara nisbətən resessiv genlərin yaratdığı genetik xəstəliyə tutulma riskini 13 dəfə artırır.

Qan qohumları olan şəxslərin eyni resessiv xəstəliklərin səssiz daşıyıcısı olma ehtimalı daha yüksəkdir, çünki onlar eyni nəsildən gəlirlər və oxşar genləri miras alıblar. Buna görə də qohum evliliyindən doğulan uşaqlarda "autosomal resessiv" genetik xəstəliklər riski daha yüksəkdir. Valideynlər arasındakı qohumluq əlaqə dərəcəsi nə qədər yaxın olarsa, uşağın eyni genləri alma ehtimalı bir o qədər çox olar. Bu, doğulmamış uşaqda resessiv genlər vasitəsilə miras qalan xəstəliklərin daha çox yayılmasına səbəb olur.

### Ölkəmizdə qohum nikahları təhlükəli həddədir

Azərbaycanda qohum evliliyinin çox olması genetik xəstəliklərin geniş yayılmasının əsas səbəbidir. Bu xəstəliklər arasında beta talassemiya, metabolik xəstəliklər, əzələ distrofiyaları, aralıq qızdırması daha çox yayılıb. Çünki ölkəmizdə bağlanan hər 100 nikahdan 20-si qohum nikahıdır. Qohumlar arasında nikahlar daha çox Şəki, Masallı və Bakıda yayılıb. BMT-nin Əhali Fondu Reproduktiv Sağlamlıq üzrə Milli Ofisinin məlumatına görə, həmin bölgələrdə irsi xəstəliklərin yayılma tempi 15 faiz təşkil edir. Bunlar arasında ən çox yayılanı da talassemiyadır.

Dünyada da qohum nikahların sayı getdikcə artır. Dünya üzrə bağlanan nikahların



20 faizi qohumluq əlaqələri olan nikahlardır. Faiz nisbəti ilə götürsək hər il dünyada doğulan körpələrin 8.5 faizi qohum nikahlarından doğulan körpələrdir. Azərbaycan kimi qohum nikahlara üstünlük verən ölkələrdə fiziki qüsurlu uşaqların doğulma tezliyi də sıxsıx rastlanır. Qohum nikahlarına görə dünya ölkələri arasında liderlik edən ölkələr C. Hindistan, Misir və Türkiyədir.

### Niyə qohuma qız verib, qız alırlar?

Ölkəmizdə qohum nikahları bir çox səbəbdən bağlanır. Birinci səbəbi qohumdan qız almaqla evdə sabitliyi qorumaqdır. Belə düşünülür ki, əgər qohumdan qız alınsa evdə qayınana-gəlin konfilikti olmaz. İkinci səbəbi odur ki, qohumla qohum olanda toy və nişan qiymətlərində güzəşt olunur. Qohumdan alınan qız bahalı kürk istəməyə, brilliant qaşlı boyunbağı istəməyə utanır. Qızın ailəsi oğlan tərəfin daha dəbdəbəli toy etməsini tələb etmir, oğlan evi daha cah-cəlallı cehiz istəmir, çünki arada qohumluq var, çəkinirlər. Üçüncü bir səbəb də odur ki, tərəflər qohumluq əlaqələrinin daha da möhkəmlənməsi üçün qohum nikaha üstünlük verirlər.

Problem o qədər böyükdür ki, həlli haradasa mümkün deyil. Çünki insanlar qohum nikahların fəsadları barədə məlumatlı deyil, xəbərdarlıqlara məhəl qoymurlar. Azərbaycanda 500 min əlil insandan 200 min nəfəri məhz qohum nikahlarından doğulanlardır. Bu insanların günahı nədir? Savadsız valideynin cəzasını körpələri çəkir. Qohum nikahlar bacı-qardaş evliliyi hesab edilir. Çünki onlar eyni genin daşıyıcılarıdır. İrsi xəstəliklər də məhz bu qohum nikahlarından sonra inkişaf edir.

### Nə etməli?

Problemin həlli yalnız məcburi qaydada mümkündür. Qadağa tətbiq edilməsə bizim ölkədə də vəziyyət kritik olacaq. AR Ailə Məcəlləsi maddə 12-də bildirilir ki, qohum nikahları ölkəmizdə qadağandır. Amma orada yaxın qohumlar - valideynlər və uşaqlar, baba-nənə və nəvələr, doğma və ögey qardaş və bacılar nəzərdə tutulur. Yaxşı olar ki, bu siyahıya əmi, bibi, xala və dayıuşaqlarını da əlavə etsinlər.

Ölkəmizdə böyük Talessemiya Mərkəzi tikilib, çünki talessemiya ağır irsi qan xəstəliyidir. Əgər qohum nikahı bağlayan hər iki



fərdin bu isri xəstəliyi varsa xəstəlik onların uşaqlarında özünü büruzə verir. Ailələr var ki, 3 uşağı var, üçü də talessemiya xəstəsidir. Çünki qohum nikahdır. Yaxın qohumlar arasında bağlanan nikahlar nəticəsində doğulan uşaqlar genetik xəstə olurlar. Əgər əvvəllər də eyni nəsildə yaxın qohumlar arasında nikahlar bağlanıbsa, uşağın xəstə doğulması riski daha da artır. Beləliklə nikaha daxil olmuş qan qohumlarının genetik xəstəliklərə yol açma riski olduqca yüksəkdir.

Qohum nikahları çoxdan qadağan etmək lazım idi, hələ də qadağan deyil. Nə qədər ki, ölkədə doğulan bütün uşaqların hamısı ya fiziki, ya əqli qüsurla doğulmayıb, bu problemi həll eləmək lazımdır. Etiraza birinci siz başlayın, qohuma qız verməyin!

***Lalə Mehralı***

## "AXCP və "Milli Şura" köhnə ənənələrindən çıxa bilmir"

*MÜNASİBƏT*

"Dünya düzəni dəyişir, yeni fikir, ideyalar və yanaşmalar formalaşır. Beynəlxalq aləmdə gedən sürətli proseslər Azərbaycana da təsirsiz ötüşmür və yeni reallıqlar ortadadır". Bunu SİA-ya açıqlamasında AMİP funksioneri Əli Orucov deyib.

Onun sözlərinə görə, Azərbayacan regionun güc mərkəzinə çevrilib: "Hətta bir sıra qlobal məsələlərdə Bakının mövqeyi nəzərə alınır. Lakin bütün bunların fonunda AXCP və "Milli Şura" köhnə ənənələrindən və steotiplərindən çıxa bilmir. Onlar hələ də ötən əsrin 80-90-ci illərində qalıblar. Müxalifətçilik dedikdə elə zənn edirlərlər ki, hər şey, ümumilikdə iqtidara pis demək lazımdır. Hakimiyyəti yeri-gəldi gəlmədi tənqid etmək, qərəzli və qeyri-obyektiv ittihamlarla süçləmaq müxalifətçilik sayılmır. Əli Kərimlinin və onun ətrafının yuxusunda da görə bilmədiyi Azərbaycanın ərazi bütövlüyü və suverenliyi həll olunub, daha böyük və strateji həfələrə doğru addım-addım irəliləyir. Bunları təqdir etmək, qarşıya qoyulan milli maraqlara xidmət edən hədəflərə çatmaq üçün dəstək vermək əvəzinə qara yaxmaq, cığallıq etmək, təbii ki, xalq tərəfindən də yaxşı qarşılanmır. Bəli, hökumətin fəaliyyətində qüsurlar və səhvlər ola bilər. Bunu dövlət başçısı özü də dəfələrlə dilə gətirib. Amma müsbət işlərə kölgə salmaq cəhdi qəbul edilmir. "Milli Şura" və AXCP-nin bu cür köhnə təfəkkürlə siyasətdə qalması onsuz da formaldır və ona görə də mövcudluğu ümumiyyətlə, hiss olunmur. Virtual olaraq bir-iki tərəfdarının saxta sosial şəbəkə hesabı ilə özünü böyük göstərməsi o demək deyil ki, siyasi fəaliyyətdədir. Siyasi partiyaların və siyasi liderlərin vəzifəsi xalqın və dövləti maraqlarını hər şeydən üstün tutmaqdır. Şəxsi maraqlarını güdənlərin isə yerini elə xalqın özü göstərir".

# Dost və düşməni tanıdan Vətən Müharibəsi

## PREZİDENT İLHAM ƏLİYEV: "Bu müharibə göstərdi ki, Azərbaycanın əsl dostları kimlərdir"

Üç il öncə - 2020-ci il sentyabrın 27-dən noyabrın 9-dək 44 gün davam edən İkinci Vətən Müzaribəsi rəşadətli Azərbaycan Ordusunun həyata keçirdiyi əks-həmlə əməliyyatları ilə əldə edilən parlaq qələbə nəticəsində ərazi bütövlüyümüz və suverenliyimiz təmin edildi. Hazırda respublikamızın qarşısında duran ən ümdə məsələ "Böyük Qayıdış" strategiyası vətəndaşlarımızın işğaldan azad edilən ərazilərdə dayanıqlı məskunlaşmasını və həmin ərazilərin ölkənin iqtisadi sisteminə inteqrasiyasını reallaşdıracaq. Artıq bərpa-quruculuq prosesinin vahid mərkəzdən həyata keçirilməsinə başlanılıb. Azərbaycan Prezident İlham Əliyev bütün görüşlərdə, müsahibələrində bu torpaqlarda bütün işlərin ardıcıllıqla həyata keçiriləcəyini, birincisi, keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışı üçün ərazilərin minalardan təmizlənəcəyini, erməni vandallarına qarşı beynəlxalq səviyyədə təzminat davasının açılması üçün onların vurduqları ziyanın qiymətləndiriləcəyini, lazımi inventarlaşdırma, pasportlaşdırma işlərinin aparılacağını, infrastruktur layihələrinin icra ediləcəyini xatırladıb. Ən əsası isə vurğulayıb ki, böyük quruculuq işlərinə isə Azərbaycana əsl dost daş ölkənin "Kolin İnşaat" özəl qurumu Füzuli-Şuşa magistral avtomobil yolu layihəsində iştirak edir. Qarabağın bərpasında xüsusi yer alan Macarıstan şirkətləri də kənd təsərrüfatı və texnologiya sahələrində böyük potensialın olduğunu nəzərə alaraq, azad olunmuş ərazilərdə aqrar sektorun inkişafında və "ağıllı" kənd və şəhərlərin salınmasında bu dövlətin imkanlarından bəhrələnməyi nəzərdə tutur. Yeri gəlmişkən, Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto Bakıda keçirilən Azərbaycan-Macarıstan işgüzar görüşündə çıxış edərkən bildirib ki, "Exim-bank" tərəfindən bu ölkənin 7 şirkətinə Qarabağda quruculuq işlərinin aparılmasına 100 milyon ABŞ dolları məbləğində kredit xətti açılıb.

Xatırladaq ki, dost ölkə olan Macarıstanla Azərbaycan arasında iqtisadi əməkdaşlıq son illərdə daha da güclənib. Təkcə 2020-ci ildə iki ölkə arasında ticarət dövriyyəsinin həcmində 9 faiz, o cümlədən idxalda 8 faiz, ixracda isə 60 faiz artım qeydə alınıb. Qarşılıqlı maraq və səylər nəticəsində, həmçinin mövcud olan potensiala uyğun şəkildə əlaqələrin qarşıdakı dövrdə daha geniş miqyas alacağı proqnozlaşdırılır. Xidmət, nəqliyyat, ticarət, kənd təsərrüfatı,







olan ölkələrin dost ölkələrin dəvət olunmasıdır: "Bu müharibə, eyni zamanda, onu göstərdi ki, Azərbaycanın əsl dostları kimlərdir, hansı ölkələrdir. Əlbəttə ki, Azərbaycan şirkətləri, ilk növbədə, bu işlərdə iştirak edəcək və bizim üçün dost olan ölkələrin şirkətlərini də biz dəvət edəcəyik, daha doğrusu, artıq dəvət etmişik".

### ƏSL DOSTLUQ İSƏ ÖZÜNÜ ÇƏTİN ANLARDA BÜRUZƏ VERİR

Azərbaycan Prezidenti çıxışlarında dəfələrlə vurğulayıb ki, əsl dostluq özünü çətin anlarda büruzə verir: "Bizim üçün də bu müharibə, eyni zamanda, onu göstərdi ki, Azərbaycanın əsl dostları kimlərdir, hansı ölkələrdir. Biz dostluğu qiymətləndirən xalqıq".Azərbaycanın öz torpaqlarını Ermənistanın işğalından azad etmək məqsədilə sentyabrın 27-də başlatdığı və 44 gündən sonra şanlı zəfərlə başa çatdırdığı Vətən müharibəsində kimin dost, kiminsə düşmən olduğunu açıq-aşkar gördük. Hətta səssiz qalmağa üstünlük verib, "nə şiş yansın, nə də kabab" deyiminə uyğun olaraq tərəflərdən heç birini incik salmamaq üçün səsləndirilən çağırışları da eşitdik. İllərlə dost, qardaş dediyimiz ölkələrin bir çoxunun düşmən qarşısında acizliyinin, qorxaqlağının şahidi olmaq bizi çox incitdi, amma nə yaxşı ki, dost, qardaş ölkələrin bir çoxu etimadı yüksək səviyyədə doğrultdu və bizi qələbəyə ilhamlandırdı. Hətta ummadığımız yerdən aldığımız dəstəklər gücümüzə güc qatdı.

### BİR MİLLƏT, İKİ ÜRƏK - AZƏRBAYCAN-TÜRKİYƏ DÖYÜŞ MEYDANINDA DA...

Torpaqlarını azad etməsi üçün Azərbaycana ən böyük dəstək verdi. Türkiyə tərəfi Prezident, XİN başçısı, Milli Müdafiə naziri, Milli İstikbarat Təşkilatı - bütün səviyyələrdə qələbə gününədək Azərbaycanla birlikdə oldu və müharibədən sonrakı proseslərdə də Azərbaycanın yanındadır. Hətta belə demək mümkündürsə, Türkiyə torpaqlarımızı geri almaqda Azərbaycanla birlikdə mübarizə apardı. Dünyada heç bir iki dövlət tapılmaz ki, bir-birinə siyasi və iqtisadi maraqdan dolayısı deyil, sırf qardaş olduqları üçün belə dəstək versin. "Bir millət, iki dövlət" meydanda da özünü açıq şəkildə göstərdi və göstərməkdədir. Pakistan, Əfqanıstan, ŞKTC, Bosniya və Hersoqovina, qonşu Gürcüstan, Ukrayna, İsrail, Macarıstan, Moldova, İran, qismən dəstək verən ölkələrdən Malayziya, Mərakeş, Səudiyyə Ərəbistanı, Özbəkistan, Qətər, Qazaxıstan, İndoneziya, Misir Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə dəstək olmaqla dost ölkə olduqlarını, istənilən separatçılıq və ya silahlı üsyan addımlarını qınadığını bildiriblər.

Böyük quruculuq işlərinə dost ölkələrin təşviq olunması siyasəti Azərbaycanın beynəlxalq aləmdə mövqeyini daha da möhkəmləndirir. Dövlətimizin başçısı çıxışlarında dəfələrlə Qarabağın bərpası məsələsinə toxunarkən, bu işə müharibə dövründə, habelə savaşdan sonrakı mərhələdə Azərbaycanı fəal dəstəkləyən qardaş və dost ölkələrin cəlb edilməsinin diqqətdə saxlanılacağını bildirib.

Prezident İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyevi videoformatda qəbul edərkən, bu barədə deyib: "Azad edilmiş ərazilərin qardaş ölkələrlə birlikdə bərpa olunması dövründə fəal qarşılıqlı əlaqələrimizə ümid edirəm. Mən artıq demişəm ki, ilk növbədə və təkcə ilk növbədə deyil, ümumiyyətlə, yalnız dost ölkələrdən olan şirkətləri cəlb edəcəyik. Dünyada belə ölkələr çoxdur, lakin onların arasında elə ölkələr var ki, müharibə dövründə və müharibədən sonrakı dövrdə Azərbaycanı fəal dəstəkləyiblər. Buna görə də fikrimcə, əlbəttə, bu mövzu Türk Şurası çərçivəsində müzakirə ediləcək. Biz baş verənləri təhlil edəcəyik və gələcək üçün planlar quracağıq. Lakin artıq əminliklə deyə bilərəm ki, ərazilərin bərpası prosesi də bizə qardaş olan ölkələr tərəfindən dəstəklənəcək".

Prezident İlham Əliyev Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyartonu videoformatda qəbul edərkən də bu barədə fikirlərini bir daha xatırladaraq, işğal altında olan ərazilərimizin azad edilməsindən sonra orada yenidənqurma sahəsində çoxlu imkanların mövcudluğunu, torpaqların güclü potensiala malik olduğunu vurğulayıb: "Həmin ərazilər tamamilə viran qoyulub və yəqin ki, siz də həmin videomateriallarla tanışsınız. Oralar darmadağın edilib və biz həmin əraziləri sıfırdan yenidən qurmalıyıq. Söhbət Azərbaycanın böyük bir hissəsi - 10 min kvadratkilometrdən artıq ərazidən gedir və biz bu işi tərəfdaşlarımızla əməkdaşlıq şəraitində icra etmək istəyirik. Mən artıq bir neçə dəfə bunu ictimai şəkildə bəyan etmişəm ki, biz dost ölkələrdən olan şirkətləri əməkdaşlığa dəvət edəcəyik. Macarıstan Azərbaycanın ən yaxın dostlarındandır. Əminəm ki, Macarıstan şirkətlərinin də azad edilmiş ərazilərdə bizimlə birlikdə çalışmaqla bağlı çoxlu imkanları olacaq".

Bu fikrin bariz ifadəsi olaraq, bir müddət bundan əvvəl bir sıra dost ölkələrin şirkətləri ilə ölkəmizin özəl qurumları tərəfindən magistral və dəmir yollarının çəkilişi, infrastruktur layihələrinin birgə həyata keçirilməsi prosesinə başlanılıb.

Bu gün bərpa prosesində Türkiyə şirkətlərinin fəaliyyəti daha çox diqqət çəkir. Qar- təmir-tikinti və s. sahələr üzrə Azərbaycanda hazırda 19 macar şirkəti uğurla fəaliyyət göstərir.

Sadalananlar isə Azərbaycanın dünya miqyasında nüfuzunu artırmaqla yanaşı, həm də ölkəmizin Cənubi Qafqaz regionunda lider dövlətə çevrilməsini şərtləndirib. Bu gün Cənubi Qafqaz regionunun iqtisadi potensialının 70 faizi məhz Azərbaycanda formalaşıb. Respublikamız iqtisadiyyatın rəqabətqabiliyyətliliyinə görə, dünya ölkələri arasında öncül yerlərdən birini tutub. Beynəlxalq reytinq agentlikləri tərəfindən Azərbaycanın potensial maliyyə və iqtisadi imkanları yüksək qiymətləndirilib. Prezident İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında çıxışı zamanı infrastruktur layihələri üzrə proseslərin başlandığını qeyd edərək bildirib ki, bərpa işlərini biz özümüz, öz vəsaitlərimiz hesabına maliyyələşdirəcəyik: "Lakin biz istəyirik ki, şəhərlərimizin və kəndlərimizin bərpasına dost ölkələrdən olan şirkətlər cəlb edilsin. Qoy onlar da bu layihələri həyata keçirə bilsinlər və həmrəylik nümayiş etdirsinlər, ona görə ki, biz, heç şübhəsiz, bütün şəhərləri bərpa edəcəyik, Qarabağı dirçəldəcəyik və onu dünyanın ən inkişaf etmiş regionlarından birinə çevirəcəyik".Sevindirici haldır ki, bu gün Azərbaycan qalib ölkə kimi dünya dövlətləri tərəfindən qəbul edilməklə yanaşı, həmçinin qonşu dövlətlərlə monolit birliyə malikdir. Bu nailiyyətlər isə Prezident, Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik məharəti, güclü iradəsi və qətiyyəti, nəhayət, diplomatik siyasətinin reallığıdır. Beləliklə, qalib Azərbaycanın yaratdığı əməkdaşlıq imkanları bütün region üçün faydalıdır. Tərəfdaş ölkələrin bu imkanlardan istifadə etməsi isə ölkəmizin çoxşaxəli münasibətlərinin inkişafına töhfə olacaq.

***RƏFİQƏ HÜSEYNOVA***

I YAZI PROBLEM

# GEYİMLƏRİMİZ: assimilyasiyanın zirvəsində

Geyim parçadan və müxtəlif materiallardan hazırlanan, insanların bədənin müxtəlif hissələrini örtmək üçün istifadə etdikləri bədən örtüyü kimi ifadə olunur. Şüuraltında isə bu, yuxarıdakı təriflə bitmir. Geyim mədəniyyət, mənəviyyat, xarakter, zövq, həm də əxlaqdır. İstər kişi, istər qadın olsun, ilk baxışda geyim onun təqdimatıdır; səliqəsi, zövqü, əxlaqı haqqında məlumatdır. Təbii ki, zaman keçdikcə, geyimlər də dəyişir, müasirləşir. Lakin bu dəyişikliklər klassik geyimlər əsasında aparılmaqla daha gözəl olardı, nəinki həmin geyimlərə əsla istinad etmədən və mentalitetimizə uyğun olmayan tərzdə.

Bu gün milli geyimləri ən çox assimilyasiyaya uğrayan xalqlar içərisində yerimiz heç də aşağı tərəf deyil, yuxarı başdır. Yüzilliklər boyu qoruyub saxladığımız dəyəri assimilyasiyanın qoynuna bu qədər asanlıqla necə ata bildik? Dəyişdirdik, özgələşdirdik, özümüzə bənzəməyən bir formaya saldıq. Qadın geyimləri əsasında bundan danışaq...



## Azərbaycan qadını Şərq qadınının ümumi obrazı kimi

Azərbaycanın və ümumilikdə şərq xalqları qadınlarının geyimi ilə yaratdığı bir obraz mövcuddur. Şərq qadını obrazı. Bütün dövrlərdə onun geyimində bir incəlik, zərafət, əxlaqi dəyərlər öz əksini tapıb. Elə bu cəhətlər də Şərq qadını obrazını formalaşdırıb. Baxmayaraq ki, geyimlər dəyişilib, lakin nə zaman Şərq qadınından söhbət açılırsa, göz önünə məhz gözəlliyini geyimi ilə daha da rövnəqləndirən obraz gəlir. O obraz ki, zaman-zaman onda bir özünəməxsusluq olub. Boy, qamət, saç düzümü, geyim və geyim aksesuarları, baş örtüyünün yaratdığı əsrarəngiz görünüş bu obrazın əsas çaları olub. İllər əsrləri tamamlayıb yeni yüzilliyə keçid etsə də, müasirlik yeni əsrlərə lövbərini açsa da, Şərq qadınının da geyimi müasirləşsə də, lakin bu geyim tərzinin görünüş etibarilə mədəniyyəti, mənəviyyatı, əxlaqı, zövqü, xarakteri özündə əks etdirən tərəfləri yerində qalıb. Bəs bu gün necə, Şərq qadını bu özünəməxsusluğu qoruyub saxlaya bilirmi?

## İctimai-iqtisadi formasiyanın geyimlərimizə əsiri

Söz yox ki, ictimai-iqtisadi formasiyalar xalqların həyatına, məişətinə təsirsiz ötmür. Azərbaycan xalqı da 70 illik bir formasiyanın gətirdiyi assimilyasiyaya məruz qaldı. Həyatımızın bütün sahələri dəyişdi. Çünki biz müstəqil bir xalq deyildik. SSRİnin tərkibinə qatılmışdıq və rus imperiyasının qanunlarına tabe idik. Həmin vaxta qədər zaman-zaman müasirləşsə də, qorunub saxlanılan geyimlərimiz yeni bir dövrə qədəm qoydu.

Burada artıq bazar da dəyişmişdi. Bazarda satılan parçalar, təklif olunan paltar çeşidləri istər-istəməz geyimimizə təsirsiz ötməyəcəkdi. Zamanla geyimlərimizə onlardan əlavə edəcək, bu "müasirləşmə" ilə də bir vaxt baxacaqdıq ki, özümüzdən ortada heç nə qalmayıb. Belə də oldu. İllərə nəzər salsaq, geyimlərimizdə əsaslı dəyişikliyin məhz SSRİ dövründən başlandığını görə bilərik. 70 il az deyil. İki qərinəlik bir vaxtdır və illərin hər biri də insan həyatına öz "naxışlarını" vurub gedir.

Azərbaycan qadını vaxtilə geyimi ilə ətrafa işıq saçıb. O geyim ki, artıq indi klassik geyim adlandırırıq və ona yalnız muzeylərdə, bayram tədbirlərində rast gələ bilirik. Sonrakı dövrlərdə təbii ki, geyimlərimiz də müasirləşdi. Qadınlar daha geniş ətəklərə deyil, bir qədər qatları az olanlara, bir qədər də qısa ətəklərə üstünlük verdilər. Bunun özündə də bir zəriflik vardı. Lakin qısaltmalar, daraltmalar o yerə gəlib çatdı ki, bir də baxdıq, sələflərimiz lap əynimizə yapışır, uzunluğu isə dizimizin altında qalıb. Elə belə qalsaydı, buna şükür edərdik. Hazırda qısa ətəklər də (cəmi bir qariş olan) var ki, əsasən gənc qadınlar onlardan istifadə edirlər.

Beləliklə, 70 ilin sonunda artıq geyimlərimiz çox dəyişmişdi. Milli geyimlərə uyğunluq yalnız kəndlərdə, o da yaşlı qadınlar arasında var idi. Gənc qadınlar isə artıq daha "müasir" geyinirdilər.

## Gəlib çatdıq müasir dövrümüzə

70 illik həmin dövrlə bizi 30 ildən artıq zaman kəsiyi ayırır. Ötən dövrdə isə dəyişənlər olduqca çoxdur. Onlardan ən başlıcası isə yenə də qadınlarımızın geyimidir. O geyim ki, artıq assimilyasiyanın zirvəsinə çatıb. Klassik geyimlərdən əsər-əlamət qalmayıb. Hansı xalqa assimilyasiya olmuşuq, heç bundan özümüzün də xəbəri yoxdur. Çünki ola da bilməz. Ona görə ki, biz harada, kimdə nə görürüksə, onu tətbiq etməyə başlayırıq. Bir andaca bəlkə on xalqın geyimlərinə müraciət edirik. Beləliklə də ortaya bugünkü qarışıq, anlaşılmaz, məntiqə sığmaz və çox halda əxlaqi dəyərlərimizə zidd geyimlər çıxır.

Küçədə tez-tez açıq-saçıq geyinən qadınlarla rastlaşmaq olur. Hansı ki, bu, vaxtilə qəbahət hesab edilə bilərdi. Bəs necə oldu ki, öz sələflərimizin üzərində gələcəyimizi qura bilmədik. Yenə də söyləmək istəyirəm ki, dövr dəyişdikcə, geyim də dəyişir. Lakin bu, o demək deyil ki, insan öz xalqını, coğrafiyasını bir kənara qoyub, özündən dəfələrlə uzağa- Avropaya gedib çıxa və orada nə varsa, götürə və qayıdıb gəlib əyninə tətbiq edə.

Beləliklə, müasir qadın geyimləri, xüsusilə də gənc qadınların geyimləri dəhşətli görünüşdədir. Orta və yuxarı yaş qadınlar geyimlərində milliliyi bir qədər saxlasalar da, lakin gənclərdə bu, əsla hiss olunmur. Bir qarış ətəklərlə və bir qarış köynəklərlə həmin milliliyi illərdir ki, torpağın altına göndərmişik. Vaxtilə topuğumuza düşən ətəklər indi qalxıb dizimizdən bir qarış yuxarıya. Vaxtilə beldən bir qarış da aşağı düşən köynəklər indi beldən bir qarış yuxarı qalxıb göbəyimizi qoyub çöldə. İndi artıq "qol" amili də yoxa çıxmaqdadır. Çünki paltarın qolunu barmaqdan nazik bir qatma əvəz edir. Paltarların sinəsi də enib enə bildikcə, qadının mübhəm orqanını çöldə qoyub. Dar, bütün əndazəni ortada qoyan şalvar və şalvarabənzər digər geyimlər çox istifadə olunan geyimlər sırasındadır. Bütün bunlar isə təəssüf ki, il-ildən daha da genişlənir. Dünənədək təsadüfi şəkildə gördüyümüz bu geyimlərlə indi gənc qızlarımız universitetlərə, iş yerlərinə gedirlər. Bu hal isə həmin geyimlərdən istifadənin daha da genişlənməsinə şərait yaradır.

## Soyunmadan məşhurlaşmaq olmur?

Bir qədər də şou-biznesdəki qadınlarımız haqqında... Deyirlər ki, indi şou-biznes aləmində açıq-saçıq və dar geyinmədən məşhurlaşmaq mümkün deyil. Gənc müğənnilərimizdən birinin ən son konsertlərindən birindəki geyimi ilə qarşılaşdım. Uzun yırtmaclı paltarda mahnı ifa edən müğənninin fikri qalmışdı dizindən bir neçə qarış yuxarıda. Nəinki fikri, əli də qalmışdı orada. Elə hey paltarı aşağı dartırdı. Tamaşaçılar da yazırdı ki, ay bala, sən nə yaman əziyyət çəkirsən... Bunu elə geyin ki, yerində olsun, əlin qalmasın da orada.

Müğənninin bu halını görəndən sonra, "indi şou-biznes aləmində açıq-saçıq geyinmədən məşhurlaşmaq olmaz" söhbətini bir daha xatırladım. Yəqin həmin müğənni də elə o söhbətlərin təsiri altına düşübmüş ki, yeni aldığımı, tikdirdiyimi paltarını bu günə qoymuşdu.

Doğrudan, geyimin məşhurlaşmağa, tanınmağa nə dəxli var? Hələ tək müğənnilər yox, televiziya aparıcıları da bu cür geyimlərə müraciət edirlər. Nə üçün, nə səbəbə biz telekanalda bir verilişi aparanda yaxası açıq paltar geyinməli, veriliş boyu əlimizlə saçlarımızı həmin açıq yerə dartmalıyıq, nə üçün minlərlə insanın qarşısında səhnədə mahnı oxuyarkən əlimiz ətəyimizin yırtmacında qalmalıdır? Nə üçün bizim cinsin nümayəndələri geniş dekolite ilə ortalığa çıxmalıdırlar?

Mənimlə razılaşanlar, bilirəm ki, yüzlərlə, minlərlə olacaq. Məşhur müğənnilərimizdən Şövkət Ələkbərova, Fatma Mehrəliyeva, Rübabə Muradova, Sara Qədimova, Zeynəb Xanlarova, Səkinə İsmayılova, Fidan və Xuraman Qasımova bacıları, Gülyaz və Gülyanaq Məmmədova bacıları, Mələkxanım Əyyubova, Nəzakət Teymurova, Aygün Bayramova, Şahnaz və Aybəniz Haşımova bacıları, Azərin, Zülfiyyə Xanbabayeva, aparıcılarımızdan Ofelya Sənani, Roza Tağıyeva, Şərqiyyə Hüseynova və adlarını çəkmədiyim, bunun üçün üzr istədiyim müğənni və aparıcı qadınlarımız var ki, onlar mentalitetimizə uyğun geyimləri ilə həmişə nümunə olublar.

## Son söz

Nəticə olaraq geyimlərimizlə bağlı vəziyyət çox dəhşətlidir. Ən pisi isə odur ki, bütün geyim növlərinin kiçik variantı da 2-3 yaşdan etibarən qızlarımız üçün istehsal edilir. Biz də həmin paltarları alıb onlara geyindirir və bununla da onların gələcək geyim tərzlərini formalaşdırırıq. Bu, hər bir ananı, qadını narahat edəcək məsələdir. Ona görə də hər bir ana, yaşlı qadın, nənə məsləhətçiyə, nəzarətçiyə çevrilməlidir. Elə vaxtilə göz yumduğumuz, vaxtında qarşısını almadığımız məsələlərdir bugünkü geyimlərimizdə təzahür edən. Çox yaxşı iş görürmüş kimi bunu körpə balalarımıza da öyrətmək əsla doğru deyil. Çünki bununla geyim anlayışının, mədəniyyətinin üzərindən xətt çəkib, onu assimilyasiyanın zirvəsinə yerləşdirmiş oluruq. Bu barədə düşünmək artıq gec olsa da, lakin ümid işığı hər zaman var...

***Mətanət Məmmədova***

# Əli Kərimli məhkəmə qarşısına çıxarılır

*Cəbhəçinin Əli Kərimlinin saxta yolla sədr seçilməsinə etiraz olaraq məhkəməyə müraciət etməsi AXCP-də ciddi qalmaqala səbəb olub*

Müxalifətin dağıdıcı qanadının yanlış baxışlara malik olması və hər bir məsələyə qara eynəkdə baxmaları onlar üçün uğursuz nəticələr verməkdədir. Düzdür, partiyalar daxilində hökm sürən mövcud ağır vəziyyəti dəyişmək üçün kollegial orqanlara yeni simalar cəlb edilir, lakin bu da problemlərin həllinə yardımçı ola bilmir. Çünki daxili vəziyyət o dərəcədə ağırdır ki, yeniliklər də o problemin aradan qaldırılmasına kömək edə bilmir. Sadəcə, yeni simalar vasitəsi ilə şansları yoxlamağa cəhd göstərirlər. Amma nə yazıqlar ki, əksər hallarda o şəxslər şanssız olurlar, nəinki cəmiyyətdə, ümumilikdə, baş vurduqları siyasət aləmində hörmət və izzət sahibi ola bilmədiklərindən uğursuzluğa düçür olub, kor-peşman əski mövqelərinə qayıdırlar. Çünki siyasi arenaya çıxan yeni simalar indiki korlanmış müxalifət funksionerlərinin cərgəsində əriyərək, sıradan çıxır və ya elə onların bir tayı olurlar. Yenilik yalnız ikinci, üçüncü tip şəxslərin başqanlığa və ya kollegial orqanlara gətirilməsi deyil, bütövlükdə, ideologiya dəyişməli, müstəqil və demokratik idarəetmə sistemi qurulmalıdır.



### Dağıdıcı müxalifət liderlərinin imici ləkələnib

Hazırkı müxalifət liderlərinin və funksionerlərinin siyasi imici həddən artıq korlanmış durumdadır. Ümumiyyətlə, mövcud hadisələrə nəzər yetirdikdə, bir daha aydın olur ki, müxalifət düşərgəsində aydın düşüncəli, sağlam fikirli, açıq, demokratik mübarizə aparmaq gücündə və istəyində olan partiya sədrləri yoxdur. Bu da onların meydan təfəkküründən qurtula bilməməsi ilə bağlıdır. Nəzərə almaq lazımdır ki, məhz onların bir illik hakimiyyətləri dönəmində yarıtmaz fəaliyyətləri səbəbindən Azərbaycan dövləti ağır faciələr yaşadı. Bu gün də eyni siyasət təkrarlanır. Yəni indiki dağıdıcı müxalifət başbilənlərinin dəyişən yalnız əyinlərinə geyindikləri kostyumlardır. Beyin düşüncələri və daxili aləmləri hələ də ötən əsrin 88-ci illərindəki kimidir. O zaman yalanları ilə idarəetmə həyata keçirən Ə.Kərimli bu gün də saxtakarlığı və böhtanları ilə siyasi düşüncəsində və fəaliyyətində heç nəyin dəyişmədiyini göstərir. Sübuta yetirilir ki, Ə.Kərimli pul xatirinə milli və dövlətçilik maraqlarını satmaqla yanaşı, ortaqlarını da aldatmaqdan və onları gedər-gəlməzə yola salmaqdan belə çəkinməyən şəxsdir. Siyasi prosesləri, qismən də olsa analiz etsək, bir daha o qənaətə gəlmək olar ki, Ə.Kərimli üçün fəaliyyət heç də siyasətdə uğur əldə etmək və nəyəsə nail olmaq deyil. Başlıca şərt, nə yolla olursa-olsun, pul qazanmaq, qrantlar əldə etmək və xarici ölkələrdə mülklər almaq və obyektlər tikdirməkdir. Fakt budur ki, Qərbdəki bəzi anti-Azərbaycan qüvvələrlə yanaşı, Rusiyanın qaranlıq dairələri də ara-sıra AXCP sədri Ə.Kərimliyə maliyyə yardımları göstəriblər. Lakin o da fakdır ki, pul ayıran şəxslər Ə.Kərimli ilə əməkdaşlıq etməklə, böyük yanlışlığa yol verdiklərini başa düşüb, onunla münasibətləri kəsirlər. Yəni müxalifət düşərgəsindəki Ə.Kərimliyə olan inamsızlıq eynilə xarici maraqlı dairələrlə də yaşanmaqdadır. Təbii ki, bu cür xarakterə və düşüncəyə malik partiya sədri ilə sonrakı mərhələlərdə də kimlərinsə yolu davam etdirəcəkləri inandırıcı deyil. Çünki Ə.Kərimli ancaq münasibət qurduğu dostlarına və təşkilatlara atmaq və ya aldatmaq haqqında düşünür. Məhz buna görə də, Ə.Kərimlinin ətrafında olan şəxslər ondan uzaq durmağa və əlaqələri kəsməyə çalışırlar.

### Əli Kərimli AXCP-də sərt diktatura rejimi qurub

Diqqətçəkən maraqlı məqam ondan ibarətdir ki, bəzən partiya sədrlərinin qəzəbinə tuş gələrək partiyadan uzaqlaşdırılmalarını həzm edib, taleləri ilə barışmayan eks-sıravilər olur. Misal olaraq, AXCP NTK-nın sədri olmuş Aydın Əliyevin Ə.Kərimlinin tələbinə əsasən, partiya sıralarından xaric edilməsini rahatlıqla həzm etməməsini göstərmək olar. A.Əliyev AXCP sıralarından xaric edilməsini partiya nizamnaməsinin tələblərinin kobud şəkildə pozulması kimi qiymətləndirərək, hüquqlarının bərpası iddiası ilə Nəsimi rayon məhkəməsinə müraciət edib. Bu barədə, bizə A.Əliyevin özü məlumat verdi: "Nəsimi rayon məhkəsməsinin hakimi Rəşid Səmədovun sədrliyi ilə keçirilən prosesdə iddiam təmin olundu. AXCP sədri Əli Kərimli partiyada sərt diktatura rejimi qurub. Onun antidemokratik hərəkətlərinə etiraz edənləri müxtəlif üsullardan istifadə etməklə partiyadan uzaqlaşdırır. Əli Kərimli qatı diktatordu. O cəbhəçiləri aldadır, xalqımıza və dövlətimizə qarşı xəyanət edir".

### AXCP- nin qurultayı qanunlara zidd formada keçirildiyi üzə çıxdı

Əli Kərimli başqalarını ən iyrənc formalardan istifadə etməklə ləkələməyə cəhd etməsi, nəhayətdə özünün bəlalarla üzləşməsinə gətirib çıxarır. El məsəlində deyildiyi, "sirkə nə qədər tünd olsa da öz qabını çatladar". Yəni Ə.Kərimli etdiyi bəd əməllərinin bəlasını çəkməkdədir. Xüsusilə də, AXCP-nin iyunun 24 - də keçirilən 7-ci qurultayında saxtakarlığa yol verməsi, ciddi nizamnamə pozuntusu həyata keçirməsi Ə.Kərimli və ətrafında olan trollar üçün cidd baş ağrısına çevrilib. Artıq Ədliyyə Nazirliyi AXCP-nin 24 iyun tarixli 7-ci qurultayının nəticələrinin hüquqi şəxslərin dövlət reyestrində qeydə alınmasından imtina edib. Nazirliyin imtina qərarı AXCP üzvlərindən birinin qurultay nəticələrinin etibarsız hesab edilməsi tələbinə dair iddia ərizəsinin Bakı şəhəri Nəsimi Rayon Məhkəməsi tərəfindən mümkün hesab edilməsi və həmin qərardadın Ədliyyə Nazirliyinə daxil olması ilə əsaslandırılıb. Söz yox ki, qanun aliliyi qorunacq və saxtakarlıq edən Ə.Kərimli cəzaslanacq. Daha doğrusu sədr seçkisindən narazı qalan partiyanın qurtayının nümayəndələrinin iddiaları Nəsimi Rayon Məhkəməsi tərəfindən təmin olunacaq. Bundan sonar ya AXCP növbəti qurultay keçirməli, ya da Ə.Kərimli sədrlikdən könüllü şəkildə istefa verməlidir. Əks halda qurultayın nəticələri Ədliyyə nanirliyinin hüquqi şəxslərin dövlət reyestrində qeydə alınmayacaq.Bu isə AXCP adlı qondarma qurumun tarixin arxivinə atılması deməkdir.

**İ.ƏLİYEV**

# Övladlığagötürmə hansı hallarda zəruridir?

*AYDINLIQ GƏTİRİLDİ*

“Ovladlığagötürmə müxtəlif hallarda baş verir. Adətən, vətəndaş nikahından dünyaya gəlmiş uşaqlar, valideynlərin evlənmələrinə razı olmadıqları halda, iki gəncin öz aralarında baş vermiş münasibətdən dünyaya gəlmiş uşaqlar, valideynlərinin biri və ya hər ikisi vəfat etmiş uşaqlar uşaq evinə yerləşdirilir. Bəzən ana çox erkən yaşda uşaq dünyaya gətirmiş olur. Fərdlərin, ana və atanın şəxsi məsuliyyət və iqtisadi məsuliyyət hissi çox zəif olur. Onların iqtisadi azadlıqları olmur. Bu kimi hallarda da körpə uşaq evinə verilir. Bir cütlüyün uşaq evindən uşaq götürməsi məhz belə uşaqların övladlığa götürülməsidir. Əslində, bu halda uşağın övladlığa götürülməsi daha məqsədə uyğundur". Bu sözləri SİA-ya psixoloq Mikayıl Əliyev deyib.







Onun sözlərinə görə, bizim cəmiyyətdə isə çox vaxt bunu qəbul etmirlər: "Daha çox qohum ailənin uşaqları övladlığa götürülür. Səbəb kimi uşağın genetikasını, başqa sözlə, əslini-nəslini bildiklərini söyləyirlər. Yəni "Ot kökü üstündə bitər" deyərək, gələcəkdə var-dövlətin ona qalması, onu övladlığa götürmüş valideynlərə qocalıq dövründə baxması kimi məsələ də ortaya qoyulur. Təbii ki, bunun müsbət tərəfi var".

Mütəxəssis bildirib ki, övladlığa götürüldüyü, uşağa deyilməlidir: "Bu məsələ uşaqdan gizli saxlanılmamalıdır. Ümumiyyətlə, bu məsələnin uşağa deyilmə yaşı 4-7 yaş arasıdır. Bu məsələ ailənin özü tərəfindən deyil, çox yaxşı olardı ki, hansısa bir psixoloq dəstəyi vasitəsilə həyata keçirilsin. "Nəyə görə deyilməlidir" sualına gəldikdə, bilmək lazımdır ki, insanın həyatda ilk qazanmış olduğu duyğu güvən hissidir. Bu duyğu ana bətnindən başlayır. Uşaq sonradan biləndə ki, mən bu ailənin övladı deyiləm, o halda, uşaqda güvən duyğusu sarsılmış olur. O baxımdan, məsələnin psixoloq vasitəsilə açılması daha yaxşıdır. Burada bir peşəkar dəstəyi məhz ona görə lazımdır ki, uşağın bunu yad insanlar tərəfindən eşitməsi onun stress keçirməsinə səbəb olacaq. Uşaq təşvişli ola bilir. Bu halda isə özünə daha çox qapanır".

**L. Sərraf**

# "İsrail-Fələstin müharibəsi ən təhlükəli məqama yetişib"

*ŞƏRH EDİLDİ*

“İsrail-Fələstin müharibəsi ən təhlükəli məqama yetişib. Müşahidələr göstərir ki, əgər bundan sonra da atəşkəs elan olunmasa, fəlakətin miqyası qarşısıalınmaz dərəcədə genişlənəcək. Bu münaqişənin artıq İsrail-Fələstin müharibəsi çərçivəsindən çıxaraq regional müharibəyə çevrilmək təhlükəsi mövcuddur". Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Aydın Quliyev deyib.



Onun sözlərinə görə, bu müharibənin qarşısının alınması üçün ona tərəfsiz mövqelərdən müdaxilələrə ehtiyac var: "Təəssüf ki, indiyədək bu müharibəni dayandırmaq üçün edilən müdaxilələrin arxasında geosiyasi maraqlar dayanıb. Ona görə də bu müdaxilələr bir nəticə vermir. Müharibənin hələ də davam etməsinin səbəbi ondan ibarətdir ki, istər İsrailə, istərsə də əks tərəfə təsir göstərən qüvvələr ümumi razılığa gələ bilmirlər. Ən səmərəli çıxış yollarından biri Türkiyənin və Azərbaycanın irəliyə sürdüyü variantdır. Bu da BMT-nin 1947-ci il qətnaməsinə uyğun iki dövlət prinsipi ilə həll modelinə uymaqdır".

"Əgər bu prinsip tərəflər tərəfindən qəbul olunarsa, bu zaman atəşkəsin dayandırılmasına nail olmaq mümkün olar. Hazırda İsrail Qəzza bölməsini tam şəkildə mühasirəyə almaq niyyətindədir. Qəzzanın iki yerə bölünməsi təhlükəsi artıq realdır. Çünki İsrail qoşunları Qəzzada quru əməliyyata başladıqdan sonra şəhəri ələ keçirməklə əslində, Aralıq dənizinə birbaşa yol açmaq üzrədir. Bu da Şimal və Cənubun arasında əlaqənin kəsilməsi deməkdir. Bu, olduqca faciəli vəziyyətdir. Ona görə də dünya dövlətləri təcili müdaxilə etməlidirlər",- deyə o əlavə edib.

**Ləman**

# 2024-cü ilin dövlət büdcəsi nə vəd edir?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Gələn ilin dövlət büdcəsi layihəsi hazırkı qlobal siyasi və iqtisadi təlatümlər fonunda olduqca effektiv bir iqtisadi inkişaf modelinin əyani nümunəsidir

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" istiqaməti çərçivəsində hazırlanıb*







**Xəbər verdiyimiz kimi, noyabrın 2-də "2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının qanun layihəsi ölkə Prezidenti tərəfindən Milli Məclisə təqdim olunub. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında geniş müzakirədən sonra komitə üzvləri "qanun layihəsini 1-ci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə ediblər. Bəs gələn il üçün dövlt büdcəsi necə formalaşdırılıb və nələri özündə ehtiva edir. Bu haqda ətraflı məlumat verməyə çalışaq.**

Layihəyə əsasən, 2024-cü ildə ölkəmizdə ümumdaxili məhsul artımın 2,4 faiz, neftin 1 barrelinin orta qiyməti optimist ssenaridə 80 ABŞ dolları nəzərdə tutulub. Növbəti ildə inflyasiyanın 5,3 faiz olacağı planlaşdırılır.

2024-cü ildə qeyri-neft sektorunun 4,6 faiz artması və ÜDM-də payının 70 faizi keçməsi gözlənilir. Təqdim edilən büdcə layihəsində son 7 ildə ilk dəfə olaraq büdcə gəlirlərinin 51 faizə qədərinin qeyri-neft sektorunun hesabına formalaşması təklif olunur.

Büdcə layihəsində növbəti ilin gəlirlərinin cari ilə nisbətən 282,5 milyon manat, xərclərinin isə 138,2 milyon manat artması planlaşdırılır. Büdcə layihəsində sosial xərclərin 1 milyard 34,5 milyon manat artması planlaşdırılır.

Növbəti ilin dövlət büdcəsində ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi, azad edilmiş ərazilərimizə Böyük qayıdışa dair Birinci Dövlət Proqramında müəyyən edilmiş mühüm tədbirlərin icrası üçün maliyyə təminatının yaradılması əsas prioritet xərc istiqamətləri kimi nəzərdə tutulub.

2024-cü ilin dövlət büdcəsinin xərcləri 36 milyard 763 milyon manat həcmində təklif olunur. Bu, cari il üçün təsdiq olunmuş göstərici ilə müqayisədə 3 milyard 409 milyon manat, cari ilin yenidən baxılma ilə əhəmiyyətli dərəcədə artırılmış dövlət büdcəsi xərclərindən 3 milyard, nisbətdə isə 138 milyon manat çoxdur. Xərclərin 93 faizi və ya 34 milyard 173 milyon manatının dövlət büdcəsinin gəlirləri hesabına maliyyələşdirilməsi nəzərdə tutulur.

2024-cü ilin gəlirləri 2023-cü il üçün təsdiq olunmuş gəlirlər proqnozu ilə müqayisədə 283 milyon və ya 0,8 faiz, 2022-ci ilin icra göstəricisi ilə müqayisədə isə 3 milyard 493 milyon manat və ya 11,4 faiz çox olacaq. Gəlirlərin qeyri-neft sektoru üzrə və neft sektoru üzrə bölgüsünün bərabər olacağı gözlənilir. Dövlət büdcəsinin neft-qaz sektorunda məcmu gəlirləri 17 milyard 164 milyon manat nəzərdə tutulub. Dövlət Vergi Xidmətinin xətti ilə dövlət büdcəsinə 13 milyard 865 milyon manat, cari ilin proqnozu ilə müqayisədə 1 milyard 122 milyon manat və ya 7,5 faiz çox, qeyri-neft sektoru üzrə isə 9 milyard 890 milyon manat, cari illə müqayisədə 905 milyon manat və ya 10,1 faiz çox vəsaitin təmin olunması nəzərdə tutulur. Dövlət Gömrük Komitəsinin xətti ilə növbəti il üçün 5 milyard 900 milyon manat daxilolmalar nəzərdə tutulur və bu cari illə müqayisədə 172 milyon manat və ya 3 faiz çox olacaq. 2024-cü ildə dövlət büdcəsinin sair gəlirləri üzrə 388 milyon manat, büdcə təşkilatlarının ödənişli xidmətləri üzrə 831 milyon manat vəsaitin daxil olması proqnozlaşdırılır.

2024-cü ilin dövlət büdcəsi xərclərinin 51,2 faizi və ya 18 milyard 833 milyon manatı məqsədli dövlət proqramlarının və tədbirlərin maliyyələşdirilməsi üçün nəzərdə tutulub. Dövlət büdcəsi xərclərinin prioritet istiqamətlərindən olan müdafiə və milli təhlükəsizlik xərclərinə 17,5 faiz və ya 6 milyard 421 milyon manat məbləğində vəsait nəzərdə tutulub və bu 2023-cü illə müqayisədə 366 milyon manat və ya 6 faiz çoxdur.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair 1-ci dövlət proqramının icrası üçün 4 milyard manat, 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasında nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsinə əlavə olaraq 1 milyard 509 milyon manat, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin icrası üçün 249 milyon manat vəsait yönəldiləcək. Bununla yanaşı, işğaldan azad olunmuş ərazilərdə ödəniləcək kommunal xidmətlərə və məcburi dövlət sosial sığorta haqlarına görə 10 il müddətinə dövlət büdcəsi vəsaiti hesabına maliyyə yardımının göstərilməsi və işğaldan azad edilmiş ərazilərdə müvafiq strukturların yaradılması üçün 40 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur.

2024-cü ildə dövlət büdcəsi xərclərinin 42,9 faizi, onun cari xərclərinin isə 69,7 faizi və ya 15 milyard 773 milyon manatı sosialyönümlü xərclərin maliyyələşdirilməsinə istifadə olunacaq. Cari ilin göstəriciləri ilə müqayisədə bu 1 milyard 35 milyon manat və ya 7 faiz çoxdur. O, həmçinin dövlət büdcəsində təhsil, səhiyyə, mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti, mənzil və kommunal təsərrüfatı, kənd təsərrüfatı tədbirləri, ətraf mühitin mühafizəsi, dövlət əsaslı vəsait qoyuluşu, sahibkarlığın dəstəklənməsi, beynəlxalq fəaliyyət və bir sıra digər sahələrə ayrılmış xərclərə dair göstəriciləri nəzərə çatdırıb.

2024-cü il üçün icmal büdcənin gəlirləri 38 milyard 998 milyon manat, xərcləri 42 milyard 376 milyon manat, kəsiri isə 3 milyard 379 milyon manat həcmində proqnozlaşdırılır. Kəsirin ÜDM-ə nisbəti 2,9 faiz təşkil edəcək.

Dövlət Neft Fondunun gəlirləri 12 milyard 73 milyon manat, xərcləri isə 12 milyard 862 milyon manat təşkil edəcək. Növbəti ildə büdcənin gəlirləri və xərcləri bərabər olmaqla Dövlət Sosial Müdafiə Fondunun büdcəsi 6 milyard 920 milyon manat, İcbari Tibbi Sığorta Fondunun büdcəsi 2 milyard 811 milyon manat, İşsizlikdən Sığorta Fondunun büdcəsi 238 milyon manat, Naxçıvan Muxtar Respublikasının büdcəsi 516 milyon manat təşkil edəcək.

Qeyd edək ki, dövlət borcunun ÜDM-ə nisbətinin 14,5% təşkil edir və bu büdcə qaydası göstəricisi ortamüddətli dövr üzrə hədəflənən yuxarı hədd çərçivəsindədir.

2024-cü ilin dövlət büdcəsi ilə birlikdə təqdim olunmuş makroiqtisadi çərçivəyə əsasən, növbəti il ölkə iqtisadiyyatında əlverişli makroiqtisadi mühitin müşahidə ediləcəyi proqnozlaşdırılır. Belə ki, ölkə iqtisadiyyatında real artım, məqbul inflyasiya, profisitli tədiyə balansı və sabit məzənnə nəzərdə tutulur.

Qeyd edək ki, cari ilin dövlət büdcəsi çox effektiv şəkildə icra olunub. İlin 9 ayında vergi daxilolmaları üzrə proqnoz tapşırığı 106 faiz icra edilməklə, proqnozdan əlavə dövlət büdcəsinə 723 milyon manat vəsait daxil olub. Neft-qaz sahəsindən vergi gəlirləri ötən ilin eyni dövrü ilə müqayisədə 1 milyard 150 milyon manat, qeyri-neft/qaz sahəsində isə 1 milyard 200 milyon manat artıq icra edilib. Bununla yanaşı, sosial sığorta yığımları üzrə yüksək artım dinamikası müşahidə edilməkdədir. Cari ilin 9 ayında məcburi dövlət sosial sığortası üzrə daxilolmaların proqnozu 109 faizə yaxın icra edilərək, 3,8 milyard manat vəsait daxil olub. Son 4 il 9 ay ərzində 340 mindən çox yeni əmək müqavilələri bağlanıb, cari ildə isə 71 min yeni daimi iş yerin yaradılıb.

Ölkəmiz post-pandemiya və post-münaqişə dövründə yeni strateji inkişaf mərhələsinə qədəm qoyub, bu dövrdə yeni nəsil islahatlar vasitəsi ilə iqtisadi artımın dayanıqlı mənbələrinin hərəkətə gətirilməsi, ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin, innovasiya və ixrac yönümlüyünün, maliyyə dayanıqlığının daha da gücləndirilməsi, onun qlobal dəyər zəncirinə səmərəli inteqrasiyası, yüksək rifah cəmiyyətinin sürətlə formaslaşması qarşıda duran əsas hədəflərdir.

Göründüyü kimi, qlobal siyasi və iqtisadi təlatümlərin baş verdiyi bir dövrdə Azərbaycan özünün siyasi çəkisini artırmaqla yanaşı, iqtisadi yüksəlişini də təmin edir. Bu isə son 20 ildə həyata keçirilmiş iqtisadi siyasətin məntiqi nəticəsidir. İldən ilə ölkəmizin iqtisadi qüdrətinin artması dolayısı ilə əhalinin sosial rifahının da artmasını şərtləndirir.

Nəzərə alsaq ki, son illərdə işğaldan azad edilmiş ərazilərdə çox böyük quruculuq işlərinə başlanılıb, bunun üçün böyük vəsaitlər xərclənir və ölkəmiz bu ağır yükün öhdəsindən gələ bilir, bu halda əminliklə deyə bilərik ki, iqtisadi inkişafın davam etməsi və gəlirlərimizin artan dinamikası Qarabağın çox qısa müddətdə bərpa ediləcəyi və ölkəmizin iqtisadi dövriyyəsinə qoşulacağından sonra Azərbaycan daha tarazlı və daha davamlı iqtisadi inkişaf mərhələsinə daxil olacaq.

Xüsusən də, qeyri-neft sektorunun getdikcə iqtisadiyyatlmızın daha çox hissəsini təşkil etdiyini və dövlət büdcəsinin gəlirlərinin yarıdan çoxunu verdiyini nəzərə alsaq, əminliklə demək olar ki, Azərbaycan artıq təkcə neft ölkəsi, neftdən asılı olan ölkə kimi deyil, diversifikasiya edilmiş iqtisadiyyat ölkəsi kimi dünyada öz layiqli yerini tutacaq.

***Elçin Bayramlı***

SƏS
4 noyabr
2023-cü il

# Bu şəxslərin ölkədən getmək hüququ bu hallarda məhdudlaşdırıla bilər






VƏKİL AÇIQLADI

**"Vergi ödəyicisi vergi öhdəliyini bu Məcəllə ilə müəyyən edilmiş müddətdə yerinə yetirmədikdə, hesablanmış vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının ödənilməsini təmin etmək üsulu kimi vergi ödəyicisi olan fiziki şəxsin və ya hüquqi şəxsin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması üçün məhkəməyə müraciət etmək vergi orqanının hüquqlarından biridir".**

Bu sözləri SİA-ya açıqlamasında vəkil Turan Abdullazadə deyib. Onun sözlərinə görə, vergi ödəyicisi vergi, məcburi dövlət sosial sığorta, icbari tibbi sığorta və işsizlikdən sığorta haqları üzrə öhdəliyini qanunla müəyyən edilmiş hallarda və müddətlərdə yerinə yetirmədikdə, hesablanmış vergilər, məcburi dövlət sosial sığorta, icbari tibbi sığorta və işsizlikdən sığorta haqları üzrə borcların və faizlərin, vergilər və məcburi dövlət sosial sığorta haqları üzrə tətbiq edilmiş maliyyə sanksiyalarının ödənilməsini təmin etmək üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə məhkəməyə müraciət etmək hüququna malikdir: "Ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması haqqında ərizə fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin yaşadığı (olduğu) yer üzrə verilir.

Vergi ödəyicisi və ya sığortaedən olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması haqqında ərizədə məhdudlaşdırmaya əsas olan hallar qeyd olunmalı və ərizəçinin xahişi göstərilməlidir. Vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması haqqında ərizə məhkəməyə təqdim olunduqdan sonra məhkəmə tərəfindən 10 gün müddətinə baxılır".

Turan Abdullazadə sözlərinə belə davam edib: "Məhkəmə ərizəyə baxılması barədə işdə maraqlı olan şəxslərə məlumat verməlidir. İşə baxılmanın vaxtı və yeri haqqında lazımi qaydada xəbərdar edilmiş işdə maraqlı olan şəxslərin məhkəmə iclasına gəlməməsi işə baxılmasına mane olmur. Lakin işdə maraqlı olan şəxslər üzrlü səbəblərdən gəlmədiyi hallarda məhkəmə işin baxılmasını təxirə salır.

İşə mahiyyəti üzrə baxan hakim ərizənin rədd edilməsi və ya təmin edilməsi barədə qətnamə qəbul edir. Vergi ödəyicisi və ya sığortaedən olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması haqqında qətnamə qəbul edildikdən dərhal sonra qüvvəyə minir və qətnamədən şikayətin verilməsi onun icrasını dayandırmır.

Vergi ödəyicisi olan fiziki şəxsin və ya hüquqi şəxsin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılmasına səbəb olmuş əsaslar aradan qalxdıqdan sonra dərhal həmin məhdudlaşdırmanın götürülməsi barədə qərar qəbul etməlidir".

***Ayşən Vəli***


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343**
**7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898**
**8. Ziya LTD – 0124977696, 0503067744**

**1 nüsxə 1 aylığı 13.20 AZN**
**6 aylıq 79.20 AZN**
**1 illik 158.40 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# "Mina elə bir bəladır ki, ondan qurtuluş yoxdur"

*ŞƏRH EDİLDİ*




"Təəssüflər olsun ki, mina elə bir məsələdir ki, bunu bir anda tam olaraq həll etmək mümkün deyil. Çünki mina ilə çirkləndirilmiş ərazi və obyektlər tam olaraq faktiki təmizlənə bilmir". Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Azər Həsrət deyib.

Azər Həsrət sözlərinə belə davam edib: "Əgər tam olaraq fikir verminizsə, hətta İkinci Dünya müharibəsi, yəni 1939-1945-ci illər ərzində mina və hərbi silah-sursatla çirkləndirilmiş ərazilərdə indinin özündə belə təhlükəli tapıntılar var. Yəni, faktiki olaraq dünyanın istənilən bölgəsində mina ilə çirkləndirmə nəticə etibarilə ona gətirib çıxarır ki, bundan gələcək nəsillər də zərər çəkir. Ermənistanın işğal altında tutduğu Azərbaycan ərazilərini belə çirkləndirməsi də eyni qəbildəndir. Yəni, faktiki olaraq torpaqlarımız elə çirkləndirilib ki, onun təmizlənməsinə on illər sərf olunacaq.

Düzdür, Azərbaycan dövləti mümkün qədər sürətlə bu prosesi həyata keçirir. Lakin, görürsünüz ki, 44 günlük müharibə bitdikdən və torpaqlar azad edildikdən sonra 300 civarında insanımız bu və ya digər şəkildə minaya düşüb. Onların bəziləri həlak olub, bəziləri də ciddi yaralar alıb. Bundan savayı texnika tələf olub. Bizim hətta jurnalistlərimiz də minaya düşərək həlak olub. Bu elə bir bəladır ki, ondan qurtuluş yoxdur. Təbiidir ki, bu bəlaya səbəb olanlar bəşəriyyət qarşısında mütləq cavab verməlidirlər. O cümlədən də Azərbaycan torpaqlarını mina ilə çirkləndirən işğalçı Ermənistan".

***Ayşən Vəli***


# "Nar" beynəlxalq MMA yarışı "RIZIN" turnirinin rəsmi tərəfdaşıdır




"Nar"ın dəstəyi ilə Bakıda ilk dəfə beynəlxalq "RIZIN" "Landmark 7" turniritəşkil ediləcək. Böyük maraqla gözlənilənMMA üzrə turnir 4 noyabrda Milli Gimnastika Arenasında baş tutacaq. Turnirə dünyanın 13 ölkəsindəntanınmış peşəkar idmançılarla yanaşı,dünya şöhrətli yerli idmançılarımızda qatılacaq.

"Nar" turnirin əsas dəstəkçisi olmaqdan qürur duyur və bütün idmançılarımıza uğurlar arzulayır. Qeyd edək ki, tədbirin təşkilatçıları Azərbaycan Gənclər və İdman Nazirliyi və RIZIN Döyüş Federasiyası, rəsmi promoteri Bakı Şəhər Halqası Əməliyyat şirkətidir. Hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**